EVDƏ QAL, SAĞLAM QAL!

**Prezident Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb**



Bax 3

**Milli Məclisin növbədənkənar sessiyası başa çatıb**



Bax 8



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 108 (6073) 1 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Dünya ölkələri Azərbaycan Prezidentinin təşəbbüsünü çox vacib bir təşəbbüs kimi qiymətləndirir"





Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığı davam edir. Pandemiya dövründə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında çox sıx əlaqələr qurulub. Ümumdünya Səhiyyə Təşkilatının pandemiyanın ilk vaxtlarında Azərbaycana verdiyi tövsiyələr çox ciddi şəkildə nəzərə alındı və ölkəmiz tərəfindən zəruri tədbirlər görüldü...

Bax 4

## "Azərbaycanda biz bu istiqamətdə çox fəal irəliləmişik"

### Azərbaycan Prezidenti İlham Əliyev və Ümumdünya Turizm Təşkilatının Baş katibi arasında videokonfrans keçirilib



Bax 2

## Azərbaycan və Ermənistan XİN rəhbərlərinin videokonfrans formatında görüşü baş tutub



Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi və iştirakı ilə video konfrans formatında görüşü baş tutub. Xarici İşlər Nazirliyindən (XİN) SİA-ya verilən məlumata görə, bir saat davam edən...

Bax 4

## Açıqlandı: Nikol Paşinyan niyə orduda xidmət etməyib?

Ermənistan baş naziri Nikol Pashinyanın nə üçün orduda xidmət etməməsi ilə bağlı açıqlama verilib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu açıqlamanı erməni baş nazirin...



Bax 6

## Sərt karantin rejimi uzadıla bilər - SƏBƏBLƏR

Dünən Azərbaycanda 544 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 343 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış...



Bax 10

## Arda Turan "Barselona" ilə vidalaşdı



Arda Turanın "Barselona" ilə müqaviləsi başa çatıb. Belə ki, türk yarımmüdafiəçinin Kataloniya klubu ilə 5 illik müqaviləsi dünən bitib. Qeyd edək ki, A.Turan 2015-ci ildə "Atletiko"dan...

Bax 16

**"Ermənistan istər regional, istərsə də beynəlxalq layihələrdən kənarda qalıb"**



Bax 9

**Vüqar Rəhimzadə: "Milli şura"çıların Ermənistan hakimiyyətinə dəstəyi simasızlığın pik nöqtəsidir"**



Bax 9

**Qənimət Zahid Əli Kərimlinin planlarını ifşa etdi**



Bax 14

# “Azərbaycanda biz bu istiqamətdə çox fəal irəliləmişik”



*Azərbaycan Prezidenti İlham Əliyev və Ümumdünya Turizm Təşkilatının Baş katibi arasında videokonfrans keçirilib*

***İyunun 30-da BMT-nin Ümumdünya Turizm Təşkilatının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu təşkilatın Baş katibi Zurab Pololikaşvili arasında videokonfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Zurab Pololikaşvilini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir:***

-Hər vaxtınız xeyir, hörmətli Baş katib. Sizi görməyə şadam. Yenidən görüşmək və ümumi işlər barədə danışmaq üçün yaxşı imkan yaranıb. Əlbəttə, turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə edirik. Buna görə təbiidir ki, sizin üzərinizə əlavə yük düşüb. Ona görə ki, əvvələn, pandemiya dövründə turist axını təbii olaraq çox azalıb, lakin postpandemiya dövründə də bu sahənin bərpa olunması, əlbəttə, müəyyən məhdudiyyətlərlə bağlı olacaq.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycana gələnlərin sayının xeyli artması müşahidə olunurdu. Keçən il rekord göstərici qeydə alınıb - 3 milyondan çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Faiz nisbətində desək, turist axını təqribən 15 faiz artıb. Son 4-5 ildə orta illik artım göstəricisinin 10-24 faiz həddində olmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahə çox geniş vüsət alıb. Biz şadıq ki, özəl sektor bu sahəyə fəal sərmayə qoyur, dövlət də dəstək göstərir. Pandemiya dövründə biz bu sahədə işləyən insanlara maddi dəstək göstərmişik, çünki onlar praktiki olaraq işsiz qalıblar. Sahə bərpa olunmağa başlayana qədər bu dəstək göstəriləcək. Odur ki, mühüm məsələlər barədə danışmaq təşəbbüsünə görə sizə təşəkkür edirəm. Sizi yenidən görməyimə şadam.

Zurab Pololikaşvili: Cənab Prezident, ilk növbədə, bu görüş üçün vaxt ayırdığınıza, bir daha ünsiyyətdə olmaq, söhbət etmək imkanına görə Sizə təşəkkür edirəm. Düz bir il bundan əvvəl, iyun ayında Bakıda olmuşuq, bizim İcraiyyə Şurasının iclası keçirilib. İcraiyyə Şurasının iclası bizim təşkilat üçün ən mühüm hadisələrdən biridir. Səmimi qonaqpərvərlik üçün bir daha təşəkkürümü bildirmək istəyirəm. Bütün qonaqlar çox razı qaldı, hər şey yaxşı oldu. Siz düzgün qeyd etdiniz, bu pandemiya bütün dünyanı cənginə alıb, 2-3 aydır ki, bütün dünya bağlıdır, 150-yə yaxın ölkənin sərhədləri hələ də açılmayıb. Bəlkə də ən çox itki, ən böyük böhran ilə üzləşən turizm sektoru olub, nəinki Azərbaycanda, bütün dünyada tarixdə belə hal olmamışdı. İndi biz heç vaxt görmədiyimiz böhran içindəyik. Bu günə qədər ümumi itkilərin həcmi təqribən 1 trilyon 500 milyon dollara bərabərdir.

BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili son 2 ayda təşkilatın həyata keçirdiyi işlərdən danışaraq qeyd etdi ki, qurum tərəfindən ilk gündən regionlar üzrə fəal ölkələrin, aidiyyəti beynəlxalq təşkilatların daxil olduğu böhran komitəsi yaradılıb, “Evdə qal ki, sabah səyahət edəsən” adlı kampaniya elan olunub. Azərbaycanla Ümumdünya Turizm Təşkilatı arasında əməkdaşlıqdan danışan Zurab Pololikaşvili mehmanxanaların sertifikatlaşdırılması üzrə layihənin dövlətimizin başçısı və təşkilat tərəfindən dəstəklənməsini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev: Sağ olun. Əvvələn, əməkdaşlığa və Azərbaycanda turizm sektorunu dəstəklədiyinizə görə sizə təşəkkür edirəm. Görüşümüz yadımdadır. O zaman siz nisbətən yaxın vaxtda Ümumdünya Turizm Təşkilatının Baş katibi kimi mühüm vəzifəyə seçilmişdiniz. Zənnimcə, sizin ilk səfərlərinizdən biri Azərbaycana olub. O vaxt biz görüşdük və hətta birlikdə turizm sərgisinə getdik. Beləliklə, görüşlərimizi xatırlayıram və keçən il Bakıda Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının iclasında iştirak etdiyinizə görə də sizə təşəkkürümü bildirmək istərdim. Belə bir mühüm beynəlxalq təşkilatın həmin Şura iclasının Bakıda keçirilməsini biz Ümumdünya Turizm Təşkilatı tərəfindən dostluq və dəstək əlaməti kimi qiymətləndiririk.

Əlbəttə, sizin tövsiyələriniz çox qiymətlidir, biz postpandemiya dövründə onlara riayət edəcəyik. Ona görə ki, siz qeyd etdiyiniz kimi, pandemiya dövründə dünya ölkələrinin çoxu, o cümlədən Azərbaycan da öz sərhədlərini bağlayıb. Bizim sərhədlərimiz indiyə qədər bağlıdır, onlar yalnız Vətənə qayıtmaq istəyən Azərbaycan vətəndaşlarının qəbulu üçün və Azərbaycanı tərk etmək istəyən əcnəbilərin getməsi üçün açıqdır. Bu, onunla bağlıdır ki, biz, ilk növbədə, insanların təhlükəsizliyi, sağlamlığı, onların həyatı barədə düşünürük. Əlbəttə, virusun Azərbaycana kənardan gətirildiyini nəzərə alaraq hesab edirik ki, indiki mərhələdə yeganə düzgün yol sərhədlərin bağlanmasıdır. Lakin, eyni zamanda, ümid edirik ki, pandemiya zəiflədikcə, o cümlədən bizim sıx əməkdaşlıq etdiyimiz Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməklə biz də sərhədləri açacağıq. Bunun nə vaxt baş verəcəyini demək çətindir. Lakin bu, baş verən kimi, əlbəttə, turizm sektorunun bərpasına dair sizin tövsiyələriniz çox gərəkli olacaq.

Bu dövrdə biz nə etmişik? Biz turizm sektorunun işçilərinin əməkhaqqının çox hissəsini ödəmişik ki, onların dolanışıq üçün vəsaiti olsun və bu sahədə sahibkarlar kadr potensialını qoruyub saxlaya bilsinlər. Mənə təəssüflə məruzə edirlər ki, işçilərin sayı müəyyən qədər ixtisar edilir. Buna görə mən hökumətə təlimat vermişəm ki, bu məsələyə baxılsın və turizm sektorunun dəstəklənməsi davam etdirilsin. Ona görə ki, siz yaxşı bilirsiniz, bu potensialı artırmaq çox çətin və məsul məsələdir. Azərbaycanda biz bu istiqamətdə çox fəal irəliləmişik. Əvvəlcə infrastruktur layihələrindən, ölkəmizin təqdimatı ilə bağlı layihələrdən, sərgilərdə iştirak etməkdən, müxtəlif beynəlxalq tədbirlərin keçirilməsindən başladıq. Deməliyəm ki, Azərbaycanda turizmin sürətli inkişafı çox cəhətdən Formula 1 yürüşlərinin keçirilməsi ilə bağlı idi. Birinci yürüş keçirildikdən dərhal sonra turizmin artmasını gördük. Dediyim kimi, hər il bu potensial artır və müxtəlif məlumatlara görə əcnəbilər Azərbaycanda hər il təqribən 1,5-2 milyard dollar pul xərcləyirlər. Yəni, bu, bizim iqtisadiyyata böyük valyuta axını deməkdir. Buna görə də turizm sənayesinin yaradılması üçün çox böyük qüvvə sərf etmişik və otel biznesi ilə məşğul olan iri firmalar, dünyanın aparıcı brendləri Azərbaycana gəliblər. Bunu nəzərə alaraq, əlbəttə, biz bu sahəni itirə bilmərik. Biz kadr potensialını, qazanılmış təcrübəni qoruyub saxlamalıyıq. Buna görə dövlət bu sahəni dəstəkləyəcək.

Lakin, əlbəttə, postpandemiya dövründə işi daha düzgün görmək üçün bizə sizin təşkilat tərəfindən tövsiyələr lazımdır. Biz buna çox ümid edirik. Əminik ki, sizin verəcəyiniz məsləhətlərə əməl edəcəyik və onları həyata keçirməklə çalışacağıq ki, bu sahəni maksimum qısa müddətdə bərpa edək. Hərçənd bu, asan olmayacaq. Əlbəttə, biz turizm sahəsində aparıcı ölkələrin, böyük təcrübəyə malik olan və özlərinin iqtisadi inkişafında müəyyən dərəcədə, əhəmiyyətli dərəcədə turizm sektoruna güvənən ölkələrin atdığı addımları diqqətlə izləyəcəyik, lakin əlaqələrimizi də davam etdirəcəyik. Əminəm ki, imkan yaranan kimi sizi yenidən Azərbaycanda görəcəyik.

Zurab Pololikaşvili: Sağ olun, cənab Prezident. Siz hər şeyi çox gözəl qiymətləndirdiniz. Mən özəl sektoru bu cür dəstəklədiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Ona görə ki, Siz çox yaxşı qeyd etdiniz, Sizin rəhbərliyinizlə sərf olunmuş qüvvəni və qoyulmuş sərmayələri öz gözümlə görmüşəm. Son 3-5 ildə ölkənizdə turizmə aid rəqəmlərin necə dəyişməsini özüm görmüşəm. Məsələn, Formula 1 kimi layihələr, mehmanxana biznesinə kapital qoyuluşu - bütün bunlar rəqəmlərlə əks olunub. Bizim ilk gündən etibarən ölkələrə göndərdiyimiz tövsiyələrdə özəl biznesə və bu sektorda çalışan insanlara böyük dəstək verilməsindən bəhs edilirdi. Bu dəstəyə görə çox sağ olun.

Bu gün ən vacibi insanlar və onların sağlamlığıdır. Sabahkı günə gəldikdə, Siz çox düzgün qeyd etdiniz ki, biz böyük və inkişaf etmiş ölkələrin bütün yaxşı nümunələrini dəstəkləyəcək və bütün ölkələrə göndərəcəyik. Biz Madriddə, İspaniyada yerləşirik. İspaniya həm özü, həm də turizm biznesi COVID-19-dan zərər çəkmiş ölkələrdən biridir. Onların postpandemiya dövrü üçün çox konkret və çox maraqlı inkişaf planı var.

Biz hökmən Sizinlə əməkdaşlıq edəcəyik və vaxt itirməməyiniz, mövsüm açılan kimi sərhədləri açmağa, ölkənin populyarlaşdırılmasını davam etdirməyə hazır olmağınız üçün Sizə hazır sənəd verəcəyik. Ona görə ki, indi bütün ölkələr öz kampaniyalarına başlamağa hazırdırlar. Hamı beynəlxalq əlaqələrin açılacağı günə hazırlaşmaq istəyir. Odur ki, hər şey artıq hazırdır və biz birbaşa əlaqə saxlayacağıq, bütün yaxşı ideyaları, Azərbaycanın son illərdə nail olduğu rəqəmlərə mümkün qədər tezliklə qayıtmaq üçün istifadə ediləcək bütün yaxşı nümunələri çox fəal şəkildə yayacağıq.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz Ümumdünya Turizm Təşkilatının tövsiyələrinə riayət edəcəyik. Əlbəttə, dediyim kimi, daha çox inkişaf etmiş turizm sənayesinə malik olan ölkələrin addımlarını müşahidə edəcəyik. Xüsusən ona görə ki, yay mövsümünün az qala üçdəbir hissəsi arxada qalıb. Buna görə yəqin ki, iyul-avqust aylarında ölkələr daha çox açılacaq. Mən dünyada baş verən hadisələri müşahidə edirəm və görürəm ki, turizm istiqamətləri arasında aviasiya əlaqələri artıq bərpa olunur, buna görə biz bu prosesi çox diqqətlə izləyəcəyik.

Eyni zamanda, onu da demək istərdim ki, indi, xüsusən pandemiya dövründə biz daxili turizmə böyük diqqət yetiririk. Çünki daxili turizm xarici turizmi tam əvəz etməsə də, hər halda, bizim turizm infrastrukturunu, o cümlədən regionlarda müəyyən dərəcədə doldura bilər. Azərbaycan vətəndaşlarının hələlik xaricə gedə bilmədiklərini nəzərə alaraq, əlbəttə, daxili turizm sənayesini dəstəkləyən amil ola bilər. Pandemiya sovuşandan dərhal sonra biz, əlbəttə, öz addımlarımızı çox dəqiq planlaşdırmalıyıq. Bir daha demək istəyirəm ki, səhvə yol verməmək və məhz turizm sahəsinin bərpası istiqamətində addımlar atmaq üçün sizin növbəti məsləhətlərinizi, tövsiyələrinizi gözləyəcəyik.

Əminəm ki, bütün dünyada turizm sahəsi bərpa olunacaq. Bu, birmənalı olaraq belədir, sadəcə, vaxt tələb edir. Biz bu sahəyə sərmayə qoyulmasını bundan sonra da davam etdirəcək, əcnəbi turistlər üçün daha yaxşı şərait yaradacağıq. Ona görə ki, Azərbaycanda buna kömək edə biləcək bütün amillər var: sabit ictimai-siyasi şərait, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, tarixi abidələr, təbiətin müxtəlifliyi, yay turizmi, qış turizmi və Azərbaycan mətbəxi. Belə ki, burada bütün amillər var. Həm coğrafi mövqeyimiz, həm dünyanın müxtəlif ölkələri ilə aviasiya əlaqələrimiz. Buna görə yalnız məqsədyönlü iş və potensialın artırılması, bir də, əlbəttə, məsələn, ölkəyə əcnəbi vətəndaşların böyük axınına mane olan bürokratik əngəllərin aradan qaldırılması lazımdır. Bütün bunlar gündəlikdədir.

Zurab Pololikaşvili: Sizinlə tamamilə razıyam. Yəqin ki, yay tətilləri dövründə bütün dünyada yerli turizm daha çox inkişaf edəcək. İş elə gətirib ki, hələ yanvar ayında 2020-ci ili “Kənd turizmi ili” və “Regional turizm ili” elan etmişik. Biz pandemiya olacağını bilmirdik. İndi ölkələrin regionlarda infrastruktura sərmayə qoyuluşunu bərpa etmələri üçün yaxşı şans var. Bu, regionlarda yeni iş yerləri yaratmağa imkan verəcək. Düşünürəm ki, bu dövrdə yerli turizm daha çox inkişaf edəcək. Bu, ölkələrin regional turizmi inkişaf etdirmələri üçün yaxşı şans ola bilər. Biz Sizinlə hökmən çox sıx əməkdaşlıq edəcəyik. Dəstəyinizə görə çox sağ olun. Sizinlə söhbətimiz bizim üçün çox vacibdir. Ona görə ki, turizmin bütün ölkələrin iqtisadiyyatının ən mühüm amillərindən biri olmasını bütün dünya liderləri təsdiqləyiblər. Əlbəttə, Sizin iştirakınız və fəallığınız bizim özümüzü daha inamlı hiss etməyimiz üçün hamımıza çox kömək edəcək və edir. Əminəm ki, Sizin dəstəyiniz Azərbaycandakı və bütün turizm sektorundakı yerli sahibkarlara böyük təkan, böyük dəstək olacaq. Bizə vaxt ayırdığınıza və bu cür səmimi söhbətə görə Sizə bir daha təşəkkür etmək istərdim.

Prezident İlham Əliyev: Çox sağ olun. Bu təşəbbüsünüzə görə sizə bir daha təşəkkür etmək istəyirəm. Şadam ki, Azərbaycan ilə sizin rəhbərlik etdiyiniz təşkilat arasında çox sıx münasibətlər yaranıb. Biz fəal əməkdaşlıq edəcəyik. Sərhədlər açılanda sizi Azərbaycanda gözləyəcəyik. Çox sağ olun.

Zurab Pololikaşvili: Hökmən görüşəcəyik. Çox sağ olun.

# Prezident Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb

***Prezident İlham Əliyev Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan milli mətbuatının 145 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.***



Sərəncamda Prezident Administrasiyasına koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etmək tapşırılıb. Həmçinin Prezident Administrasiyası jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Prezidentinə təqdim etməlidir.

Sərəncamda deyilir: “145 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra mətbuatımız yeni inkişaf mərhələsinə qədəm qoymuş, öz fəaliyyəti ilə müstəqil dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, istiqlal ideyalarının yayılmasında, habelə milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda müasir kütləvi informasiya vasitələrinin formalaşması və inkişafı üçün geniş imkanlar yaranmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Hazırda həyata keçirilən sistemli islahatlar, şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan sosial innovasiyaların tətbiqi, idarəetmə sahəsində baş verən keyfiyyət dəyişiklikləri, ictimai nəzarət və siyasi dialoq mühitinin genişləndirilməsi dinamik inkişaf edən Azərbaycanda müasir dövlət quruculuğunun başlıca istiqamətlərini təşkil edir.

Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır”.

# “Modern Diplomacy” portalında “Azərbaycanı təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyası çağırılacaq” adlı məqalə dərc edilib

***Beynəlxalq münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin üzvü Esmira Cəfərovanın Avropa İttifaqının “Modern Diplomacy” portalında “Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyası çağırılacaq” adlı məqaləsi dərc edilib.***




Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, məqalədə COVID -19 pandemiyası kontekstində Azərbaycanın milli səviyyədə gördüyü işlər və əldə etdiyi uğurlarla yanaşı, onun həm də artıq “orta miqyaslı bir güc” olaraq beynəlxalq müstəvidə apardığı uğurlu xarici siyasətdən bəhs edilir. Həmçinin bildirilir ki, bu çətin zamanlarda belə Azərbaycan beynəlxalq normaları təbliğ edən bir dövlət kimi fəal siyasət yürüdərək Türk Şurasının və Qoşulmama Hərəkatının virtual zirvə toplantılarını çağırıb və özünütəcrid siyasətinin əməkdaşlıq və həmrəyliklə əvəz edilməsinin dünya miqyasında COVID-19-la mübarizədə daha düzgün nəticələrə gətirəcəyini nümayiş etdirib.

Müəllif qeyd edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin may ayının 4-də keçirilmiş Qoşulmama Hərəkatının virtual zirvə toplantısında irəli sürdüyü BMT Baş Assambleyasının COVID-19-la bağlı xüsusi sessiyasının çağırılması təşəbbüsü əvvəl Qoşulmama Hərəkatı dövlətləri tərəfindən, sonra isə BMT dövlətlərinin üçdəikisi, yəni 130 dövlət tərəfindən dəstəklənib və müvafiq sessiyanın çağırılması razılaşdırılıb. Təşəbbüsün əleyhinə çıxış edən yalnız Ermənistan olub: “Bu zamanadək BMT Baş Assambleyasının yalnız məhdud sayda xüsusi iclasları keçirilib və insanların həyatını təhlükəyə atan və yaşadığımız dünya nizamının əsaslarını sarsıdan COVID-19 pandemiyası, eləcə də BMT Təhlükəsizlik Şurasında COVID-19 pandemiyasını beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi səciyyələndirən müvafiq qətnamənin olmaması fonunda BMT Baş Assambleyasında bu səpkidə müzakirələrin daha müntəzəm olaraq aparılmasına böyük ehtiyac var. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması bir daha onu göstərir ki, beynəlxalq əməkdaşlıq, çoxtərəfli diplomatiya və qlobal həmrəylik yaşadığımız bu çətin zamanlarda milli eqoizm və özünü təcridi əvəz etməli və gözəgörünməz düşmənlə mübarizədə hər kəs bir olmalıdır”.

# "Dünya ölkələri Azərbaycan Prezidentinin təşəbbüsünü çox vacib bir təşəbbüs kimi qiymətləndirir"




Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığı davam edir. Pandemiya dövründə Azərbaycan ilə Ümumdünya Səhiyyə Təşkilatı arasında çox sıx əlaqələr qurulub. Ümumdünya Səhiyyə Təşkilatının pandemiyanın ilk vaxtlarında Azərbaycana verdiyi tövsiyələr çox ciddi şəkildə nəzərə alındı və ölkəmiz tərəfindən zəruri tədbirlər görüldü.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 30-da keçirilən brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

"Azərbaycan Respublikasının qlobal səviyyədə koronavirusla mübarizədə ən vacib tədbirlərindən biri Prezident İlham Əliyev tərəfindən BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsüdür. Xatırlatmaq istərdim ki, Qoşulmama Hərəkatının mayın 4-də keçirilmiş Zirvə görüşündə Prezident İlham Əliyev BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə əlaqədar təklif irəli sürdü. Bu təklif Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən razılaşdırılaraq BMT-nin Baş katibinə müraciət edildi. Baş katib tərəfindən də Baş Assambleyanın prosedur qaydalarına uyğun olaraq üzv dövlətlərə müraciət edildi və onların razılığı istənildi. Qaydalara əsasən, BMT Baş Assambleyasının əksəriyyətinin dəstəyi olduqda müstəsna hal kimi müntəzəm keçirilən sessiyalarla yanaşı, xüsusi sessiyalar da keçirilə bilər. BMT tarixində çox az sayda xüsusi sessiya çağırılıb. COVID-19 ilə mübarizədə də məhz Azərbaycan Prezidenti tərəfindən BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsü irəli sürülmüşdür. Bu təşəbbüs BMT-nin 130-dan çox üzv dövləti tərəfindən dəstəklənmişdir. Bu, beynəlxalq səviyyədə Azərbaycan Respublikasına olan etimadın, hörmətin növbəti bariz nümunəsidir. Hazırda BMT-nin müxtəlif strukturları tərəfindən xüsusi sessiyanın çağırılması ilə bağlı müvafiq prosedur addımlar atılır", - deyə Hikmət Hacıyev vurğulayıb.

Prezidentin köməkçisi, həmçinin qeyd edib ki, bu gün Ermənistan dünyadan yardım dilədiyi halda, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı qlobal təşəbbüsünə qarşı çıxır. Bu, bir daha Ermənistanın əsl mahiyyətini ortaya qoymuş oldu. Bütün dünya ölkələri koronavirusla bağlı həmrəylik nümayiş etdirir. Dünya ölkələri bəyan edir ki, bu, çox vacib və vaxtında irəli sürülən bir təşəbbüsdür. Lakin Ermənistan tərəfi bu təşəbbüsə qarşı çıxmaqla əsl mahiyyətini ortaya qoydu.

# Azərbaycan və Ermənistan XİN rəhbərlərinin videokonfrans formatında görüşü baş tutub



Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi və iştirakı ilə video konfrans formatında görüşü baş tutub. Xarici İşlər Nazirliyindən (XİN) SİA-ya verilən məlumata görə, bir saat davam edən video konfransda tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini müzakirə etdilər.

Nazir Elmar Məmmədyarov Ermənistan tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyət, o cümlədən infrastruktur dəyişiklikləri məsələsini qaldırdı. Həmsədrlər son zamanlar aqressiv ritorikanın artdığını qeyd etdilər. Nazir Elmar Məmmədyarov Ermənistanın təxribat xarakterli hərəkətlərinin ritorikanın alovlanmasına gətirdiyini vurğuladı. Tərəflər qarşıdan gələn ay ərzində Minsk Qrupunun həmsədrlərin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin növbəti video konfrans formatında görüşünün təşkilinə razılaşdılar. Həmçinin həmsədrlər nazirlərin birbaşa təmaslarının imkan olan ilk fürsətdə təşkili imkanlarını araşdıracaqlarını qeyd etdilər.

# MSK-nın yeni tərkibi payızda formalaşdırılacaq



"Mərkəzi Seçki Komissiyası üzvlərinin və əvəzedici üzvlərin seçilməsi haqqında" qanun layihəsi Milli Məclisin payız sessiyasında müzakirəyə çıxarılacaq. Bu barədə SİA-ya Milli Məclisdən məlumat verilib. Milli Məclisdə deputatları çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasından "Report"a bildirilib ki, MSK-nın 6 üzvü YAP-ı təmsil edəcək: "Üzvlüyə namizədlərlə bağlı məsələ isə partiya tərəfindən payızda müzakirə olunacaq". Qeyd edək ki, MSK 18 üzvdən ibarətdir və Milli Məclis tərəfindən seçilir. Seçki Məcəlləsinə əsasən, komissiyanın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı təmsil edir. 6 üzvü bitərəf deputatları, 6 üzvü deputatları Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları təmsil edir.

# Prezident İlham Əliyevin təşəbbüsünü 130-dan çox dövlətin dəstəkləməsi Azərbaycanın dünyada artan nüfuzunun göstəricisidir



Azərbaycan dövləti koronavirus pandemiyasına qarşı mübarizədə mühüm beynəlxalq təşəbbüslərlə çıxış edib. Dövlətimiz xarici siyasətində dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığa böyük əhəmiyyət verir. Bu prinsip pandemiya şəraitində də xarici ölkələrlə əlaqələrdə özünü aydın şəkildə göstərir. Bu fikirləri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, Azərbaycan beynəlxalq miqyasda pandemiya ilə mübarizəyə öz töhfələrini verir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının videoformatda Zirvə görüşlərinin keçirilməsi də buna sübutdur. Avropa İttifaqı isə ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə qoşulub. Bu prosesdə Azərbaycan dünyada birləşdirici rol oynadı. Təsadüfi deyil ki, hər iki tədbirin keçirilməsinə görə beynəlxalq miqyasda Azərbaycanın rolu çox yüksək qiymətləndirildi. Digər vacib məqam isə Azərbaycanın bir sıra ölkələrə humanitar yardım göstərməsidir. Azərbaycan indiyə qədər 30-dan çox ölkəyə humanitar yardım göstərib. Həmin ölkələrin əksəriyyəti Qoşulmama Hərəkatının üzvüdür. Bundan əlavə, Azərbaycan fərdi qaydada müvafiq beynəlxalq təşkilatlara da ianə verib. Beləliklə, dövlətimizin başçısının qeyd etdiyi kimi, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır.

Deputat deyib ki, ölkəmizin koronavirusla mübarizə istiqamətdə təşəbbüsləri beynəlxalq müstəvidə yüksək dəyərləndirilir. Mayın 4-də Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü Azərbaycana və onun liderinə dünyada olan inamın, etibarın və etimadın göstəricisidir. Sammitdə dövlətimizin başçısı çox vacib bir təkliflə çıxış etdi ki, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyası keçirilsin. Bu, çox mühüm məsələdir və Azərbaycan Prezidentinin qlobal çağırışlara çox çevik reaksiya verməsinin göstəricisidir. Müvafiq qaydalara görə, BMT-yə üzv ölkələrin çox hissəsi təşəbbüsü dəstəklədiyi təqdirdə xüsusi sessiya təşkil olunmalıdır. Artıq 130-dək ölkə təşəbbüsə dəstək verdikləri barədə Baş katibin ofisini məlumatlandırıb. Şübhəsiz ki, BMT-nin 130-dək üzv dövlətinin Qoşulmama Hərəkatının sədri statusunda Azərbaycan Prezidenti İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın növbəti göstəricisidir. Bu fakt bir daha Azərbaycanın dünyada artan nüfuzunun əyani nümunəsidir. "Düşünürəm ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi koronavirus pandemiyasına qarşı beynəlxalq mübarizədə dünya ölkələrinin birgə səylərinin gücləndirilməsində mühüm rol oynayacaq", - deyə S.Fətəliyeva qeyd edib.

# Koronavirusa yoluxma ehtimalı olan şəxslərdən testlər evlərdə götürüləcək



Koronavirus xəstəliyi ehtimalı olan şəxslərin müayinəsi və test nümunəsinin götürülməsi üçün tibbi briqadalar evlərə gələcək. SİA-nın məlumatına görə, bunu COVİD-19-la mübarizədə yaranan problemlərin aradan qaldırılması üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə yardım etmək üçün Səhiyyə Nazirliyi tərəfindən yaradılmış işçi qrupunun üzvü Nabil Seyidov deyib.

Onun sözlərinə görə, Səhiyyə Nazirliyi tərəfindən təqdim olunan tövsiyələrə uyğun olaraq, vətəndaşlar COVİD-19-la bağlı yaşadıqları ünvana uyğun olaraq, müvafiq poliklinikalarla əlaqə saxlayacaq. Poliklinikanın mütəxəssisləri tərəfindən vətəndaşın vəziyyəti ilkin olaraq qiymətləndiriləcək və COVİD-19-a dəlalət edən şikayət, simptom və ya yoluxma riskini artıran digər faktorlar (məs., təmas) dəyərləndiriləcək. Tibb işçisinin qərarı əsasında yoluxma riski olan və ya koronavirus xəstəliyi ehtimalı olan şəxslərin müayinəsi və PZR testinin aparılması üçün poliklinikaların tibbi briqadaları evlərə səfər ediləcək və testlər üçün nümunələr məhz orada götürüləcək. Qeyd edək ki, bəzi şəxslər COVİD-19-a görə test nümunəsinin götürülməsi üçün poliklinikalara çağırılmasından narazılıq edirdi.

# Bakı və Bakıətrafı qəsəbələrdə koronavirusdan sağalan 2 minə yaxın şəxs poliklinika nəzarətindədir




Ev şəraitində nəzarətdə olan xəstələrin statistikasının aparılmasına yeni başlanılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyinin Aparatının rəhbəri Nadir Zeynalov Nazirlər Kabinetinin yanında Operativ Qərargahın iyunun 30-da keçirdiyi mətbuat konfransında məlumat verib. COVID-19 xəstəliyindən əziyyət çəkmiş, xəstəxanada müalicə almış xəstələr evə yazılarkən onlara ambulator müalicənin təyin olunduğunu vurğulayan N.Zeynalov deyib: "Bu müalicə sahə həkiminin nəzarəti altında aparılır. Beləliklə, onlar yaşadıqları ünvan üzrə poliklinikada qeydiyyatda olurlar. Hazırda Bakı və Bakıətrafı qəsəbələrdə bu xəstələrin arasından 2 minə yaxın şəxs poliklinika nəzarətindədir. Bundan sonra poliklinikalar tərəfindən qeydiyyata alınan, fəal şəkildə nəzarətə götürülən, yüngül əlamətlərlə ev şəraitində müalicə olunan xəstələrin statistikası yenidən formalaşdırılacaq".

# Vətəndaşının sağlamlığını hər şeydən üstün tutan LİDER

## *Prezident İlham Əliyev: "Mənim üçün insanların sağlamlığı əsas prioritetdir"*

***Xüsusilə son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının realllığıdır. Buna isə...***



### "Biz birlikdə güclüyük!" devizi ilə...

Bəli, dövlət başçısı hər an öz xalqının yanında olduğunu göstərməkdədir. Dövlətin siyasəti onu göstərir ki, insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Təbii ki, cəmiyyət Prezidentin bu qayğısını görür, anlayır və başa düşür. Məhz buna görə son günlərdə dövlət başçısına gələn təşəkkür məktublarının sayı-hesabı yoxdur. Prezidentin saytında oxuya biləcəyimiz məktublarda insanlar böyük səmimiyyətlə və ürəkdən gələn sözlərlə dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir. "Biz birlikdə güclüyük" şüarının sadəcə bir söz olmadığını ifadə edirlər. Prezident İlham Əliyev öz çıxışında belə həssas bir məqamda dövlətin öz vətəndaşının arxasında olduğunu nümayiş etdirdi.

"Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında çıxışı zamanı dövlət başçısı bildirib. Dövlət başçısı qeyd edib ki, həkimlər yaxşı bilirlər və artıq ictimaiyyətə də dəfələrlə bu fikir çatdırılıb ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır: "Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir. Bizdə də bu problemlər var, beş ayın nəticələri onu göstərir ki, bizim iqtisadiyyatımız da tənəzzülə uğrayıb. O qədər də böyük tənəzzül deyil - cəmi 1,7 faiz. Ancaq biz ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirmişdik".

Çox böyük planların, çox gözəl perspektivlərin olduğunu deyən Azərbaycan Prezidenti vurğulayıb ki, bütün aparıcı beynəlxalq maliyyə qurumları da 2020-ci ili Azərbaycanda sürətli inkişaf ili kimi görürdülər və bunu bəyan edirdilər: "Biz şüurlu şəkildə məhdudlaşdırıcı tədbirləri gördük və deyə bilərəm, dünyada ilk ölkələrdən idik ki, bütün lazımi məhdudlaşdırıcı tədbirləri gördük, məktəbləri, ali məktəbləri, ictimai iaşə obyektlərini, böyük ticarət mərkəzlərini bağladıq ki, kütləvi yoluxmanın qarşısı alınsın. Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir".

### "Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz?"

"Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma, eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır",- deyən dövlət başçısı bildirib ki, hər kəs maska taxmalıdır və bu bu insanların sağlamlığı üçün atılan addımdır: "Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi Prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik. Gənc nəslin nümayəndələri üçün bu xəstəlik o qədər də təhlükəli deyil və hesab edir ki, xəstələnərəm, sağalaram. Axı, yaxşı sən sağalarsan, amma sən yaşlı insanı da yoluxdurarsan. Sən onun həyatını təhlükə altına atırsan. Biz bu məsuliyyətsizliyə dözməliyikmi? Çünki bu, cinayətdir".

Dövlət başçısı bütün bu məsuliyyətsiz hərəkət edənlərə qarşı ictimai qınağın olmasını da dedi: "Ona görə ictimai qınaq və çox ciddi dövlət nəzarəti olmalıdır. Mən bu məsələ ilə bağlı Operativ Qərargaha göstəriş verdim ki, çox ciddi dövlət nəzarəti olmalıdır. Belə olan halda biz bütün tədbirləri daha operativ şəkildə görə bilərik və bu vəziyyətdən az itkilərlə çıxa bilərik".

"Bir xəstənin müalicəsi üçün nə qədər həkim çalışır, nə qədər həkim gecə-gündüz o ağır vəziyyətdə, o kombinezonda, eynəkdə, maskada əziyyət çəkir", - deyən dövlət başçısı onu da bildirdi ki, həkimlərin fəaliyyəti yüksək qiymətləndirilir və həkimlər də öz həyatlarını çətin duruma atırlar: "Ancaq hər bir insan bunu bilməlidir. Həkimlər də yoluxur, həkimlər də ölür. Bir daha demək istəyirəm ki, bizim indi nə qədər həkimimiz var, hamısını bu işlərə cəlb edirik. Bizim bundan iki dəfə çox həkimimiz yoxdur. Sabah bu pandemiya daha geniş vüsət alsa, əgər bu gün, misal üçün 300-400 adam yoluxursa, sabah daha çox adam yoluxarsa, bunları biz harada yerləşdirəcəyik. Tutaq ki, yerləşdirdik, indi xəstəxanalar tikilir və bizim boş çarpayılarımız var, ancaq həkimlərin sayını necə artıra bilərik?! Gərək hər kəs bu haqda fikirləşsin, hər kəs düşünsün".

### "Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar"

Dövlət başçısı bu virusa tutulanların hər gün artdığının səbəbini karantin rejiminə əməl olunmamanın səbəbini məsuliyyətsizlik və biganəlikdən irəli gəldiyinideyərək cərimələrin həcminin artırılmasını bildirdi: "İdarələrdə idarə rəhbərləri görəndə ki, onun işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir. Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar. Çünki indi böyük imkanlara sahib olan adamlar nə üçün 50 manat, 100 manat cərimə verirlər. O çıxır, maşınına oturur, hara istəyir gedir. Tutaq ki, onu saxladılar, saxlamadılar, onu da hələ bilmək olmur. Çünki hər kəsi saxlamaq da mümkün deyil. Cəriməni verir gedir, sonra istədiyini edir. Ona görə mən tapşırıq vermişəm ki, dövlət orqanları, yerli icra orqanları, hüquq mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olmalıdır. Çünki bu, milli təhlükəsizlik məsələsidir".

Dövlət başçısı həmçinin, onu da bir daha dedi ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülməlidir: "İndi görün inkişaf etmiş ölkələrdə nələr baş verir. Vəziyyət tamamilə böhran həddinə çatıb. O ölkələrin ki, dövlətçilik ənənələri yüzilliklərlə ölçülür və o ölkələrin səhiyyə sistemi dünyada nümunə kimi təqdim olunur, onlar da bacarmırlar, çünki bu, mümkün deyil. Ona görə mənim bu sözlərim hesab edirəm, hər kəs üçün əsas olmalıdır - həm vətəndaşlar üçün, - onlar daha məsuliyyətli olmalıdırlar, - həm də vəzifə tutanlar, dövlət məmurları üçün. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır. Əgər biz görsək ki, nizam-intizam bundan sonra da pozulur, onda fikirləşərik, daha hansı təsirli addımlar atılsın ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülsün".

Bəli, həqiqətən də, görünür, karantin rejimi mərhələli şəkildə yumşaldıqca insanlar arasında infeksiyaya qarşı laqeydlik, inamsızlıq, xəstələnməyəcəyinə dair arxayınçılıq yaranır. Bir sözlə, laqeydlik, arxayınçılıq isə məsuliyyətsizliyə gətirib çıxarır. Nəticədə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkədə sanitar-epidemioloji vəziyyət təhlil edilərək infeksiyaya yoluxma sürətini azaltmaq, insanların bir-biri ilə yaxın təmaslarını minimuma endirmək məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin yenidən avqustun 1-dək uzadılmasına qərar verildi. Eyni zamanda, virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə yükdaşımaları və çarter reysləri istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət də həmin vaxtadək uzadıldı.

Çünki bu gün hər kəs ilk öncə özündə sosial məsuliyyət hiss etmədikcə belə bir addımın atılması tələb olunur. Bugünkü məqamda ən önəmli məsələlərdən biri də sosial məsuliyyət məsələsidir. Sirr deyil indiki situasiya təkcə dövlət orqanları qarşısında deyil, hər bir vətəndaş qarşısında ciddi məsuliyyət müəyyənləşdirir. Hamı başa düşməlidir ki, sosial yönündən asılı olmayaraq atılan müvəqqəti və məcburi addımların cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür. Və sosial şəbəkələrdə şayiə və dezinformasiya, təşviş doğuran xəbərlər yayanlara qarşı isə ciddi tədbirlər görülür, görülməlidir də. Və dövlətin xalqın təhlükəsizliyi üçün bir qədər də zəruri və sərt addımlar atması ancaq və ancaq vətəndaşların sağlamlığı və təhlükəsizliyi üçündür!

Prezident İlham Əliyevin və Birinci-vitse prezident Mehriban xanım Əliyevanın ilk gündən pandemiyaya qarşı mübarizədə önləyici tədbirlərin görülməsi vətəndaşların sağlamlığı və təhlükəsizliyinin qorunması əsas prioritetdir. Və ölkə başçısı sözügedən tədbirdə bir daha vətəndaşları məsuliyyətli olmağa səslədi: "Ona görə burada ancaq və ancaq vətəndaşların məsuliyyəti ön planda olmalıdır".

Bəli, ölkə başçısının Gəncədə bir daha koronavirusa yoluxmadan qorunmaq üçün qaydaları bir daha xatırlatması bizi tək özümüzün deyil, ətrafdakı insanların da sağlamlığı barədə düşünməyə səsləyir. Çünki bir yoluxmuş adam nə qədər insanların çox toplaşdığı məkanlarda olarsa, yoluxma sayının artması ehtimalı da yüksəlir. Odur ki, son günlər yoluxma sayında artımın qeydə alınmasının nəticəsi olaraq, iyulun 5-ə kimi məhdudlaşdırıcı tədbirlərə başlanıldı, karantin rejiminin qaydaları sərtləşdirildi, SMS-lə icazə bərpa edildi. Bütün bu tədbirlər vətəndaşlarımızın sağlamlığı üçündür. Əgər bu zəruri tədbirlərlə yoluxma sayındakı zənciri qıra bilsək, tezliklə pandemiyanın ayağını ölkəmizdən kəsə bilərik.

### Siyavuş Novruzov: "Cərimələr kəskin artırılmasa, karantin rejiminin müddəti uzana bilər"

YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov da ölkəmizin koronavirus (COVİD-19) pandemiyası ilə apardığı mübarizə məsələsinə toxunaraq deyib ki, Azərbaycan bu gün iki cəbhədə müharibə aparır, biri torpaqlarımıza təcavüz etmiş işğalçı Ermənistanla silahlı müharibə, digəri isə gözlə görünməyən, amma vətəndaşların sağlamlığını əlindən alan, ölümünə səbəb olan koronavirusla topsuz-tüfəngsiz müharibə: "Əslində mahiyyət etibarilə ikisi də eynidir. Azərbaycanın koronavirus pandemiyası ilə mübarizə təcrübəsi dünya miqyasında müsbət nümunə kimi dəyərləndirilir, bir çox ölkələrə örnək göstərilir. Xüsusilə də, dövlətimizin öz təşəbbüsləri və əməli addımları ilə hazırkı şəraitdə dövlətlər və xalqlar arasında təmasların sıxlaşmasına, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına mühüm töhfələr verməsi yüksək qiymətləndirilir. Bütün bu faktlar Azərbaycan dövlətinin insanların sağlamlığı, təhlükəsizliyi və rifahına xüsusi diqqət yetirdiyini, eyni zamanda, bu kontekstdə qlobal səylərini əsirgəmədiyini göstərir. Bu həm də onun ifadəsidir ki, humanizm dəyərləri və ənənələrinə əsaslanan Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu siyasətin nəticələri vətəndaşlar tərəfindən olduqca yüksək dəyərləndirilir. Dövlətimizin başçısına mütəmadi olaraq ünvanlanan çoxsaylı minnətdarlıq məktublarında əksini tapan fikirlər də bunun bariz təzahürüdür".

Amma bütün bunlara baxmayaraq bu gün karantin qaydalarına vətəndaşlar tərəfindən əməl olunmamasına və ona görə də sərt qaydaların tətbiq olunmasının zərurətə çevrildiyini deyən Milli Məclisin Komitə sədri bildirib ki, cərimələrin artırılması ilə vətəndaşlar inzibati resurslarla qaydalara məcburi tabe edilməlidir. Əks halda ciddi itkilərin olması gözlənilir: "İnsanlara dəfələrlə bildirildi ki, əgər qaydalara məsuliyyətli şəkildə əməl etməslər, karantin rejimi daha da sərtləşdiriləcək. Çünki virusun qarşısının alınmasında əsas rolu vətəndaş oynayır. Lakin görünən odur ki, onlar qoyulan tələblərə əməl etmək istəmir. Bu baxımdan da vətəndaşların qaydalara əməl etməməsi, görülən tədbirləri effektsiz edir. Düşünürəm ki, bunun qarşısını almaq üçün karantin rejimi daha da sərtləşdirilməlidir. Bəlkə o zaman insanlar vəziyyətin ciddiliyini başa düşər. Baxmayaraq ki, cərimələr tətbiq olunur, amma görünən odur ki, hazırki cərimənin miqdarı insanlara vəziyyətin ciddiliyi dərk etdirmir. Bu baxımdan düşünürəm ki, cərimələri daha da artırmaq lazımdır, bəlkə insanlar vəziyyətin ciddiliyini bundan sonra dərk edib, qaydalara əməl edərlər. Vətəndaşlarımız qaydalara əməl etməməklə Azərbaycan Respublikasının Konstitusiyasının 5 maddəsini pozmuş sayılırlar. Bu məsələ hər bir şəxsin fərdi məsələsi deyil, bu ümumilikdə millətin məsələsidir".

S.Novruzov onu da bildirib ki, Qərb ölkələrində maska taxmayanlar böyük məbləğdə cərimələnirlər: "Qərb ölkələrində ictimai yerlərlə bahəm, nəqliyyatda maskadan istifadə olunması məcburidir və qaydanı pozanları böyük məbləğdə cərimələr gözləyir. Məsələn, Rusiyanın paytaxtı Moskvada ictimai nəqliyyatda maskasız olan şəxsi 4 min rubl məbləğində cərimə gözləyir. ABŞ-da ştatlardan fərqli olaraq, cərimələrin məbləği dəyişir. Məsələn, Merilend və ya Konnektikutda avtobusda maskasız olan 50 dollar məbləğində cərimələnirsə, Nyu-Yorkda avtobus və ya metroda maskasız şəxs 1000 dollarlıq cərimə ödəməlidir. Qətərdə ctimai yerlərdə maska taxmaq məcburidir. Qaydanı pozmaq həbs və ya çox iri məbləğdə cəriməyə səbəb olur. Üz maskası taxmamaq cəzası 200 min riyal (təxminən 55 min dollar) cərimə və ya üç il müddətinə azadlıqdan məhrumetmə ilə şərtləndirilə bilər. Amma Azərbaycanda vəziyyət tamam başqadır və insanlar da bu yumşalma tədbirlərindən sui-istifadə hallarına yol verir. Bu mənada hesab edirəm ki, əgər Azərbaycanda rəqəmlər artım tempi ilə davam etsə, karantin rejimi daha da ağırlaşmalı, cərimələr artırılmalıdır. Yoxsa bunun qarşısını almaq mümkün olmayacaq".

Bəli, bütün bunları xalqımız görür və öz Prezidentinin yanındadır və dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir, "Biz birlikdə güclüyük!" şüarının sadəcə bir söz olmadığını ifadə edirlər. Əslində hər zaman cənab İlham Əliyevin bütün düşüncələri, qərarları və addımları vətəndaşın rifahına yönəlmişdi. Bir sözlə, hamılıqla həmrəylik nümayiş etdirərək, dövlət başçımız İlham Əliyevin yürütdüyü siyasətə dəstək olmaqla bir daha "Biz birlikdə güclüyük!" şüarının sadəcə sözdə deyil əməlimizlə bu virusa qarşı irəli sürülən qaydalara məsuliyyətlə əməl edək!

***RƏFİQƏ KAMALQIZI***



# “Azərbaycan Fələstinlə bağlı ədalətsiz qərarlara qarşıdır”

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə “Sülhlə işğala qarşı” mövzusunda videokonfransın işində iştirak edib. Bu barədə SİA-ya QMİ-nin Mətbuat Xidmətindən bildirilib. Fələstin dövləti Baş Qazının Divanının təşkilatçılığı, Fələstinin baş qazısı Mahmud Sidqi Əl-Həbbaşın sədrliyi ilə baş tutan konfransda Şeyxülislam A.Paşazadə iştirak edib.

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən Türkiyə, İndoneziya, Misir, İraq, Sudan, Malaziya, Rusiya və digər ölkələrin nazirləri, tanınmış din xadimləri və nüfuzlu ictimaiyyət nümayəndələrinin iştirak etdiyi videokonfransda Fələstin xalqının hüquqlarının müdafiəsi, BMT müstəvisində Fələstin dövlətinə hüquqi, humanitar yardımın daha da artırılmasına dair məsələlər, habelə Qüdsün taleyinə dair narahatlıq gündəmdə olub. Videokonfransda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan xalqının və dövlətinin hər zaman Fələstin xalqının və dövlətinin yanında olduğunu, bu yöndə önəmli əməli addımlar atdığını vurğulayıb. Prezident İlham Əliyevin bu məsələyə xüsusi diqqət nümayiş etdirdiyini videokonfans iştirakçılarının nəzərinə çatdıran Şeyxülislam A. Paşazadə Azərbaycanın bütün sahələrdə Fələstinin dövlətçilik, sülh, sabitlik və davamlı inkişafla bağlı səylərini tam dəstəklədiyini xatırladıb.

Səmavi dinlər üçün müqəddəs sayılan və ilk qibləgahımız olan Qüds ətrafında baş verənlərin, təbii ki, hər bir mömin, inanclı insan üçün həssasiyyət kəsb etdiyini bildirən QMİ sədri Qüdsün Uca Yaradanın hökmünə və iradəsinə uyğun olaraq, müsəlmanlar və əhli-Kitab üçün özəl məqam olaraq qorunub saxlanılmasının, sülh, barış məkanı olmasının zəruri olduğunu ifadə edib. O bildirib ki, Ulu Yaradanın müqəddəs qərar verdiyi, müsəlman və qeyri-müsəlmanlar üçün müqəddəs sayılan yerlərə sahib olan Qüds bütün bəşərə məxsus sülh və dialoq məkanı olmalıdır.

Şeyxülislam A. Paşazadə beynəlxalq hüququn işləməməsi, beynəlxalq ictimaiyyətin mövqeyinin nəzərə alınmamasının təhlükəli meyl olduğunu xüsusi vurğulayıb. O birmənalı şəkildə bildirib ki, Qüdsün İsrailin bölünməz paytaxtı elan edilməsi haqqında təktərəfli qaydada verilmiş qərar və ümumən siyasi məqsəd, niyyətlər naminə Qüdslə bağlı qərar verilməsi qeyri-məqbuldur. Bu, nəinki müsəlmanların, qeyri-müsəlmanların da hüquqlarının pozulması deməkdir. QMİ sədri öz çıxışında bildirib ki, illərdir separatçılıqdan, bölücülükdən əziyyət çəkən xalq, əzəli torpaqları, beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edən, Xocalı şəhərində törədilmiş soyqırım cinayəti də ikili yanaşmalar səbəbindən zamanında hüquqi-siyasi qiymətini almamış cinayətlər sırasında yer alan Azərbaycan Fələstinlə bağlı ədalətsiz qərarlara qarşıdır. Fələstin probleminin sülh yolu ilə ədalətli həll olunmasının zəruriliyini vurğulayan QMİ sədri Şeyxülislam A. Paşazadə Yaxın Şərqin bu həssas bölgəsində sülh və əmniyyətin bərqərar olması üçün BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ədalətli, davamlı və sülh yolu ilə həllinin vacib olduğunu xüsusi qeyd edib.

# Yaqut Qarayeva: “Verdikləri testlərin nəticələri vətəndaşlara SMS şəklində göndərilməyəcək”




Artıq bir neçə gündür ki, “E-təbib” mobil tətbiqi istifadə olunur. Verdikləri testlərin nəticələri vətəndaşlara mobil tətbiq vasitəsilə çatdırılır. Testlərin nəticələri artıq SMS formatında göndərilmir və göndərilməyəcək. AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib. “Laborator analizin nəticəsini öyrənmək üçün sadəcə olaraq “E-təbib” mobil tətbiqini yükləmək və FIN kodu daxil etmək lazımdır. Mobil tətbiqdəki çatışmazlıqlar aradan qaldırılıb. Bununla əlaqədar 8113 - “qaynar xətt” əlaqə mərkəzi fəaliyyət göstərir. Vətəndaşların sualları olarsa, “qaynar xətt”ə müraciət edə bilərlər”, - deyə Y.Qarayeva qeyd edib.



# Açıqlandı: Nikol Paşinyan niyə orduda xidmət etməyib?

Ermənistan baş naziri Nikol Pashinyanın nə üçün orduda xidmət etməməsi ilə bağlı açıqlama verilib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu açıqlamanı erməni baş nazirin sözçüsü Mane Qevorqyan verib. “1991-ci ilin dekabr ayında qüvvəyə minmiş” Hərbi xidmət haqqında “Qanunun 23-cü maddəsinə görə, iki qardaşı məcburi hərbi xidmətini başa vurmuş şəxslərin hərbi xidmətdən azad olunması qərarına görə Nikol Paşinyan orduda xidmət etməyib”, deyə Mane Qevorqyan açıqlama vermək məcburiyyətində qalıb.

Açıqlamadan da bəlli olur ki, Nikol Pashinyan 1993-cü ildə 18 yaşında ikən iki qardaşının hərbi xidməti bitirməsi, başa vurması səbəbindən bir növ orduda xidmətdən boyun qaçırıb. Qanunun 35-ci bölməsinin tələbindən istifadə edən Nikol Paşinyan, yəni indi baş nazir postunda oturan bu avantürist Ermənistan Silahlı Qüvvələrinin ehtiyat hissəsində qeydiyyata alınıb və 1995-ci ildə ehtiyatda olan kimi hərbi vəsiqə əldə edib. Sözügedən qanunun 23-cü hissəsi 8 noyabr 1993-cü il tarixindək qüvvədə olsa da, bu tarixdən sonra ləğv edilsə də, Nikola bu nədənsə şamil edilməyib.

# AzerTelecom şirkəti rəhbər heyətində yeni təyinatları elan edir

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkətin rəhbərliyi səviyyəsində yeni təyinatları elan edir. Belə ki, 2017-cı ildən AzerTelecom şirkətinin baş icraçı direktoru Fuad Allahverdiyev şirkətin Direktorlar Şurasının Sədri vəzifəsinə təyin edilib. Digər qərara əsasən isə şirkətin baş icraçı direktoru vəzifəsinə 2018-ci ildən AzerTelecom-un baş icraçı direktorunun əməliyyatlar üzrə müavini xanım Ana Nakaşidze təyin olunub. “Qlobal, regional və lokal miqyasda etibarlı tərəfdaş kimi tanınan AzerTelecom şirkəti son illərdə mühüm uğurlara imza atıb, ölkənin dayanıqlı və sürətli internet xidməti ilə təmin olunmasına öz töhfəsini verməkdədir. Biz Azərbaycanın İKT sektorunun dayanıqlı inkişafına və ölkəmizin regional rəqəmsal mərkəzə çevrilməsinə istiqamətlənən layihələrin reallaşdırılmasını davam etdirəcəyik. Mən yeni baş icraçı direktor xanım Ana Nakaşidzeyə fəaliyyətində uğurlar arzulayıram və onun şirkətimizin inkişafına töhfə verəcəyinə inanıram” - deyə Fuad Allahverdiyev qeyd edib. “AzerTelecom şirkəti internet xidməti təminatçıları və bazarda fəaliyyət göstərən operatorlara yüksək keyfiyyətli və dayanıqlı xidmətlər göstərməklə Azərbaycanda bu sahənin inkişafında mühüm rola sahibdir və bundan sonra da bu inkişafda vacib rol oynamağı planlaşdırır. Qlobal internet xidmətləri hər bir iqtisadiyyatın uğuru üçün həyati əhəmiyyətli bir faktora çevrildiyindən şirkətimiz hazırkı dəyişən çağırışlar və imkanlar mühitində inkişaf üçün davamlı şəkildə yeni imkanları araşdırır. Mən inanıram ki, bu illər ərzində şirkətimizin böyüməsini dəstəkləyən heyətimiz hazırkı çağırışlar dönəmində də mühüm nailiyyətlər qazanacaqdır” - deyə Ana Nakaşidze bildirib.

AzerTelecom Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell şirkətinin törəmə müəssisəsidir. AzerTelecom Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. Hazırda AzerTelecom şirkəti Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün “Azerbaijan Digital Hub” (ADH) proqramını icra edir.



# “Pandemiyaya qarşı mübarizə həm də milli təhlükəsizlik məsələsidir”

“Dünya ölkələrinin koronavirusa qarşı ciddi mübarizə apardığı, xəstəliyin yüz minlərlə insanın canını aldığı bu günlərdə bir çox vətəndaşlarımızın baş verənlərə biganə yanaşması, qayda-qanunlara əməl etməməsi təəssüf doğurur”. Bu sözləriSİA-ya verdiyi açıqlamasında Milli Məclisini Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, məhz buna görə də ölkəmizdə virusa yoluxanların sayı günbəgün artır və bu da hər birimizi ciddi narahat edir, halbuki, pandemiyaya qarşı ən ciddi qabaqlayıcı tədbirlər görən, külli miqdarda vəsait ayıran, əhalinin sosial qayğılarını yüngülləşdirən bir dövlət kimi dünyaya nümunə olmuşuq. “Ölkəmizin rəhbəri Cənab İlham Əliyev, birinci xanım Mehriban xanım Əliyeva, müvafiq dövlət təşkilatları, vətənini, xalqını sevən hər bir insan dünyanı bürüyən bəlanın qarşısını almaq üçün əlindən gələni əsirgəmir. Mobil tipli yeni xəstəxanalar quraşdırılır, müasir tipli tibb avadanlıqları, dərman pereparatları alınır, istifadədə olan xəstəxanaların təchizatı yaxşılaşdırılır və xəstəliyin yayıldığı ilk gündən ciddi tədbirlər görülür. Ölkə başçısının, rəhbər vəzifəli şəxslərin, mütəxəssislərin, ictimaiyyət nümyəndələrinin müraciətləri, çağırışları davamlıdır və informasiya vasitələri ilə insanlar daimi olaraq məlumatlandırılırlar. Bəs, pandemiyanın geniş yayılmasının, yoluxanların sayının çoxalmasının səbəbi nədir? Əlbəttə ki, laqeyidlik, biganəlik, düzünü desək, düşüncəsizlik, ciddi söyləsək, özünə və başqalarına qəsd, xəyanət və cinayətdir.

Əgər kimsə maska taxmırsa, sosial məsafə saxlamırsa, tibbi, gigiyenik qaydalara əməl etmirsə, o həyatına, sağlamlığına biganədir və sabah nə baş verəcəyi barədə düşünmür. Əgər o düçünmədən bu xəstəliyə tutulursa və bunu yayırsa, ətrafdakılara qəsd edir, xəyanətə yol verir. Digər halda, onun virusa yoluxdurduğu insan dünyasını dəyişirsə, deməli o cinayətkardır. Bizim hər birimiz xəstəliyin yayılmasına imkan yaradanların əməllərinə biganə baxımdan qiymət verməliyik. Axı yoluxanlar və hər gün həyatını dəyişənlər gözlərimizin qarşısındadır. Onlar bizim vətəndaşlarımızdırlar. Belə olan halda, nədən qoyulan qaydalara əməl etməməli, özümüzü və ətrafdakıları yoluxdurmalıyıq. Hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, pandemiyaya qarşı mübarizə ümumxalq, bəşəri mübarizədir və bizim üçün milli təhlükəsizlik məsələsidir. Dövlətin, xalqın təhlükəsizliyinin təmin olunması isə qayda-qanunları pozanlara, koronavirusun yayılmasına imkan yaradanlara, yayanlara, çağırışlara, müraciətlərə biganə olanlara qarşı ciddi tədbirlər görməyi, qanunları, qaydaları sərtləşdirməyi tələb edir. Çünki, xalqın təhlükəsizliyi məsələsində heç bir güzəşt ola bilməz. Əks təqdirdə biz ağır fəlakətlərlə qarşılaşar, çıxılmaz vəziyyətə düşə bilərik. Çətinliyə gedən yollar qətiyyətlə bağlanmalıdır. Hər kəs qayda-qanuna sözsüz əməl etməlidir. Başqa əlacımız yoxdur”, deyə Tahir Rzayev bildirib.

# BMT Baş Assambleyasının xüsusi sessiyası COVID-19 pandemiyası ilə qlobal mübarizəyə mühüm töhfə verəcək



Prezident İlham Əliyevin BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün dünyanın 130-dan çox dövləti tərəfindən dəstəklənməsi ölkəmizə, onun liderinə beynəlxalq miqyasda olan ehtiramın göstəricisidir. Bu kontekstdə ön planda təbii ki, Prezident İlham Əliyevin beynəlxalq aləmdəki nüfuzu, şəxsiyyəti böyük rol oynayır. Bu, bir daha dövlətimizin başçısının qlobal əməkdaşlığa verdiyi töhfənin dünya dövlətləri tərəfindən qiymətləndirilməsini sübut edir. Bir sözlə, dünyanın 130-dan çox dövlətinin BMT Baş Assambleyasının xüsusi sessiyasının təşkil olunması təşəbbüsünü dəstəkləməsi dövlətimizin beynəlxalq aləmdə böyük diplomatik uğurudur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı deyib. Deputat diqqətə çatdırıb ki, dünyada COVID-19 pandemiyasının başlandığı ilk günlərdən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Koronavirusun tüğyan etməyə başladığı ilk dövrlərdə Azərbaycan Prezidentinin təşəbbüsü ilə COVID-19-a həsr olunmuş iki zirvə görüşü təşkil edildi. Aprel ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, may ayında Qoşulmama Hərəkatının Təmas Qrupunun videoformat şəklində Zirvə görüşləri mühüm əhəmiyyətə malikdir. Dünya ağır böhranla ölüm-dirim savaşında olarkən və ümidsizliyə qapılarkən dövlətimizin başçısı qlobal liderlik nümayiş etdirərək hər iki təsisatın üzv dövlətlərini bir araya gətirməyə nail oldu və dünyaya mesaj verdi ki, çətin günlərdə panikaya qapılmaq yox, soyuqqanlı olmaq, birlikdə vəziyyətdən çıxış yolları axtarmaq lazımdır.

Azərbaycanın qlobal çağırışlara hər zaman öz töhfəsini verdiyini qeyd edən M.İbrahimqızı vurğulayıb ki, respublikamız pandemiya ilə mübarizədə qlobal həmrəyliyin örnəyini göstərərək, ÜST-yə 10 milyon dollar həcmində könüllü ianə ayırıb, üstəlik, 30-dan artıq dövlətə humanitar yardım göndərib. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman qlobal məsələlərə xüsusi diqqət göstərməklə böyük nüfuz qazanıblar. “Prezident İlham Əliyevin təşəbbüsü ilə keçiriləcək xüsusi sessiyada yəqin ki, COVID-19 xəstəliyi ilə mübarizədə Azərbaycanın təcrübəsindən danışılacaq. Hər zaman beynəlxalq əməkdaşlığa verdiyi töhfələrlə yadda qalan Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının xüsusi sessiyasındakı çıxışı da əminik ki, bəyənilərək və təqdir olunacaq. Düşünürəm ki, xüsusi sessiya pandemiya qarşısında beynəlxalq ictimaiyyətin tam olaraq səfərbər olunmasına şərait yaradacaq və bu qlobal təhdidə qarşı qlobal cavabın tapılmasına mühüm töhfə verəcək”, - deyə Məlahət İbrahimqızı bildirib.

# Dünyanın etiraf etdiyi reallıq İlham Əliyevin fəaliyyətinə verilən real qiymətdir



*İSA HƏBİBBƏYLİ, AMEA-nın vitse prezidenti, millət vəkili*

Bu gün Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər həyata keçirir, eyni zamanda, regional və qlobal miqyasda da bu istiqamətdə həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir. İlk addım olaraq Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Qeyd etmək lazımdır ki, Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilat idi ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirib. Və bunun davamı olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakıda Qoşulmama Hərəkatının üzvləri bir araya gələrək mayın 4-də videokonfrans vasitəsilə ilk dəfə koronavirusla mübarizəyə həsr olunan "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirildi. Sirr deyil ki, COVİD-19 pandemiyasının yayılmağa başladığı vaxtdan bu günə kimi beynəlxalq müstəvidə bu formatda və miqyasda konfranslar, birgə müzakirələr keçirilməyib. Bu da əlbəttə ki, Azərbaycan Prezidentinin təşəbbüsünə verilən növbəti qlobal dəstək deməkdir. Çünki Prezident İlham Əliyevin kritik məqamlarda verdiyi çevik və qətiyyətli qərarlar Azərbaycanı dünyada fərqləndirir. Bölgədə yeganə güc sahibi olan Azərbaycan beynəlxalq aləmdə güvənilən, etibar edilən ölkə statusunu artırır, yerini və mövqeyini möhkəmləndirir.

Həmçinin, onu da vuğulamaq lazımdır ki, bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb. Bu gün artıq Azərbaycan modeli, unikal təcrübəsi mövcuddur və bu reallıq dünya tərəfindən qəbul edilir, bəyənilir. Həmçinin, reallaşdırılan sosial-iqtisadi dəstək proqramları, genişmiqyaslı antiböhran tədbirlər də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir.

Dövlət başçısı bu görüşün keçirilməsinə böyük inam və edimadın olduğunu da bildirib: "120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm. Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır. Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlamış və praktiki fəaliyyətə başlamışdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya verməşdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə Görüşü bunu göstərir".

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının videokonfrans Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış etdi. Məlum olduğu kimi, BMT Baş Assambleyası ildə bir dəfə sentyabrın üçüncü həftəsində azı 3 aylıq müddətə toplanır. BMT Nizamnaməsinə əsasən, BMT Baş Assambleyası zəruri ehtiyac olduğu fövqəladə vəziyyətlərdə xüsusi sessiyalar keçirə bilər. Azərbaycan Prezidentinin bu təklifi Nyu-Yorkda Qoşulmama Hərəkatının 120 üzv ölkələri arasında yekdilliklə razılaşdırılmış və bunun ardınca hazırda Hərəkatın sədri olan Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlamışdır. BMT-nin Baş katibi mayın 28-də BMT Baş Assambleyasının "Prosedur Qaydaları" adlı sənədinin 9 (a) bəndinə uyğun olaraq bütün üzv ölkələrə müraciət edərək 30 gün müddətində, yəni iyunun 27-dək edilən təşəbbüsə dair münasibət bildirilməsini xahiş etmişdir. Azərbaycan Prezidentinin bu təklifindən keçən dövr ərzində rəsmi məlumatlara görə, 130-a qədər ölkə təşəbbüsə dəstək verib.

Bu isə, Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün BMT-nin üzvü olan 130-a qədər dövlət tərəfindən dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə, eləcə də dövlətimizin başçısına olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Onu da vurğulamaq istərdim ki, bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olub. Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünün bir daha təcavüzkar mahiyyətini göstərdi. Eyni zamanda, onu da xatırlatmaq istərdim ki, iyunun 18-də Prezident İlham Əliyevin iştirak etdiyi Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində bir daha Ermənistan dövlətinin işğalçılıq siyasətini qlobal müstəvidə ifşa etdi. Dövlət başçısı Sammitdə danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, "Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır" deməklə Paşinyana növbəti dəfə tarix dərsi keçdi.

Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün ehtiyacların ödənilməsi məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını qeyd edib. Azərbaycan Prezidenti isə çıxışında vurğulayıb ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırmaqla, eyni zamanda, 29 dövlətə humanitar yardım göstərdiyini və bu işin davam etdirildiyini bildirdi. Göründüyü kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün, sadəcə, məqsədli şəkildə pul dilənir. Zirvə görüşündə Ermənistan və onun havadarlarının bütün səylərinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük diplomatik uğura imza atıldı, 120 dövlətin təmsil olunduğu Zirvə görüşündə Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail olundu.

Bir məqamı da qeyd etmək istərdim ki, BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi Azərbaycanın böyük diplomatik uğurudur. Məhz dövlət başçısının diplomatik uğurunun nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünü 130 ölkənin dəstəkləməsi dünya dövlətlərinin Azərbaycana və onun liderinə hörmətinin əyani təsdiqidir. Bu fakt bir daha təsdiqləyir ki, artıq dünyanın inkişaf etmiş dövlətlərinin Azərbaycana inam və etimadı artmaqdadır. Postsovet dövlətləri arasında Azərbaycanın dünya birliyində belə yüksəkliyə qalxması və beynəlxalq ictimaiyyətin inamını qazanması düzgün müəyyənləşdirilmiş siyasi kursun bariz nümunəsidir.

Əminliklə vurğulamaq istərdim ki, Azərbaycan Respublikası Prezident İlham Əliyevin rəhbərliyi altında Qoşulmama Hərəkatında sədrliyi dönəmində bundan sonra da multilateralizmə, dünya ölkələrinin ümumi təhdidlər qarşısında birləşməsinə və qlobal həmrəyliyin gücləndirilməsinə yönəlmiş fəaliyyətini davam etdirəcək. İnanıram ki, Prezident İlham Əliyevin yeni təşəbbüsü həm amansız COVİD-19 pandemiyasına qarşı beynəlxalq mübarizənin daha səmərəli şəkildə təşkil edilməsində, həm də qlobal miqyasda əməkdaşlıq və həmrəyliyin möhkəmləndirilməsində yeni imkanlar yaradacaq. Və ən qısa zamanda BMT-yə üzv olan dugər ölkələr də bu baqda məlumatlandırılacaq və sessiya mümkün qədər tez bir zamanda təşkil olunaraq, baş tutacaqdır.

## “”Milli Şura” adlı amorf qurum şər işlərlə məşğuldur”



"Ümumiyyətlə "Milli Şura" adlı amorf qurum şər işlərlə məşğuldur. Onların Azərbaycan dövləti və xalqı üçün gördüyü hansısa xeyirxah iş haqqında danışa bilmirik. Bunlar elə quruluşundan Azərbaycan dövlətinə, xalqına qarşı olublar. Xaricdə himayə axtarıblar ki, hakimiyyətə gəlsinlər və ölkədə prezident vəzifəsini ələ keçirsinlər. Təbii ki, Azərbaycan xalqı da onlara yerini göstərib və onları tarixin zibilliyinə tullayıb". Bunu SİA-ya siyasi şərhçi Azər Həsrət deyib.

Siyasi şərhçinin sözlərinə görə, "Milli Şura"nın son videokonfransından yayılan görüntülərdə açıq şəkildə bildirilir ki, bu qurumun əsas vəzifəsi Azərbaycan hakimiyyətini şərləməkdir: "Bu etiraf onların əsl simasını və xislətini aydın nümayiş etdirir. Bu sadəcə olaraq özlərinin öz üzərlərində istehsasıdır. Yəni adamlar özlərinin mahiyyətini öz dilləri ilə ifadə edirlər. Biz illərdir deyirdik ki, "Milli Şura" adlı amorf qurumda birləşmiş adamlar siyasətdən başqa hər şeylə məşğuldurlar. Çünki siyasət anlayışları sıfırın altındadır. İndi o adamlar artıq etiraf edirlər ki, Azərbaycan hakimiyyətinə şər atırıq. Təbii ki, biz də illərdir ki, bunu deyirdik. Hətta bəzən dediyimizə görə də tənqid, təhqir olunurduq. İndi isə adamlar öz dilləri ilə bunu etiraf edirlər. Düşünürəm ki, bu etirafdan sonra bizi təhqir və tənqid edənlər dönüb özlərinə baxsalar və haqsız olduqlarını etiraf etsələr yerinə düşər. Yəni "Milli Şura" dediyimiz bu qurum öz dilləri ilə desək, hakimiyyəti şərləməklə məşğuldur və məhz onun üçün də fəaliyyət göstərir".

## Əhliman Əmiraslanov: "Əgər qaydalara əməl olunmasa..."



"Koronavirus pandemiyası ilə əlaqədar dünya ölkələrində durum gərginləşir. Virus bəşəriyyət üçün bəlaya çevrilib. Pandemiyanın ilk iki ay ərzində dünyada 100 min insan virusa yoluxmuşdusa, indi 24 saat ərzində virusa yoluxanların sayı 180 min nəfərdir. Bu, son dərəcə yayılmağa meyilli virusdur". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov deyib.

Ə.Əmiraslanov bildirib ki, son 14 gün ərzində Azərbaycanda virusa yoluxanların sayı 50 faiz artıb: "Bu, ciddi məsələdir. Yoluxmanın artması Azərbaycan səhiyyəsinə təzyiq yaradır. Baxmayaraq ki, tibb müəssisələrimizin maddi-texniki bazası, həkimlərimizin peşəkarlığı yüksəkdir, amma yaranmış durum səhiyyə sisteminə təsir edir. Pandemiya başladığı ilk vaxtlarda insanlar simtompları hiss edən zaman müraciət edirdilərsə, indi ağırlaşandan sonra xəstəxanalara müraciət edirlər. Onu da qeyd edim ki, dünyada virusa yoluxanların sayı artsa da, Avropanın bir sıra ölkələrində yoluxma azalıb. Bunun səbəbi isə insanların qaydalara əməl etməsi, sosial izolyasiya qaydalarına riayət olunması və tibbi maskalardan istifadə olunmasıdır. Əgər virusa yoluxmuş insanla sağlam insan maska taxarsa, onda sağlam insanın xəstəliyə yoluxması ehtimalı 1 faizdir".

Komitə sədri deyib ki, koronavirusla mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz bütün mümkün addımları atır: "Amma hər bir vətəndaş da qaydalara əməl etməlidir. Buna görə də, tədbirlər sərtləşdirilməlidir. Vətəndaşlar anlamalıdır ki, əgər qaydalara əməl olunmasa virus hər birimizin ailəsinə daxil ola bilər, hər birimiz süni nəfəs aparatına qoşula bilərik. Ona görə də, hər kəs bunu nəzərə almalı və qaydalara ciddi şəkildə əməl etməlidir".

## Hayk Mamicanyan: "Aİ-nin Ermənistandakı səfiri niyə susur?"



Dünən Ermənistan Respublikaçılar Partiyasının gənclər qanadının 100 fəalı, təkcə Aİ-nin Ermənistandakı nümayəndə heyətinə deyil, həm də ATƏT-in iştirakçı dövlətlərinin Ermənistandakı bütün səfirliklərinə və BMT-yə məktub göndərib. SİAErənistana məxsus tert.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistan Respublikaçılar Partiyasının gənclər qanadının rəhbəri Hayk Mamicanyan bu gün jurnalistlərə müsahibəsində deyib. O, qeyd edib ki, Məktubun məzmununda Konstitusiya Məhkəməsi və demokratiya ətrafında baş verənlər təsvir edilir.

"Niyə biz Aİ nümayəndə heyəti ilə başladıq? Çünki qərəzli çıxışı ilə, bəzən qərəzli bir sükutla xanım səfir belə təsəvvür yaradır ki, guya Avropa təşkilatları bu məsələlərdə susur. Venesiya Komissiyası, Avropa Şurası və digərləri bu yolverilməzliyə dair fikirlərini bildiriblər", deyə Hayk Mamicanyan bildirib.

Onun sözlərinə görə, fövqəladə vəziyyət rejimi bu cür hərəkətlərin baş verməməsi üçün uzadılır, lakin bütün qaydalara əməl edilir. Tutulmaqdan da, həbs edilməkdən də narahat deyillər. "Mövcud hakimiyyət istər daxili, istərsə də beynəlxalq platformalarda bir şey edə bilmədiklərini başa düşmələri üçün belə hərəkətlər edirik və başa düşəcəklər ki, hər şey onlara icazə verilmir", deyə o bəyan edib.

# Milli Məclisin növbədənkənar sessiyası başa çatıb

***İyunun 30-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyi təqdim edib. Bildirib ki, gündəliyə 7 məsələ daxildir və sənədlərin hamısı üçüncü oxunuşda olan qanun layihələridir.***



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəliyə bir zərfdə daxil olmuş dörd məsələ - Vergi Məcəlləsinə, "Notariat haqqında", "Sosial sığorta haqqında" və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" qanunlara təklif olunan dəyişikliklər barədə (üçüncü oxunuş) məlumat verib. Qeyd edilib ki, bu sənədlərə təklif olunan dəyişikliklər elektron notariat və elektron məhkəmə sistemlərinin digər informasiya sistemləri ilə məlumat mübadiləsinin aparılması üçün qanuni əsas yaratmaq məqsədi daşıyır. Bu, eyni zamanda, vətəndaşın dövlət orqanına müraciətini minimuma endirmək və dövlət orqanlarının vətəndaşdan tələb etdiyi informasiyanı almaq imkanı yaradacaq. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Prezident İlham Əliyev tərəfindən bir məktubda daxil olmuş növbəti üç məsələ barədə məlumat verərək bildirib ki, üçüncü oxunuşda təqdim edilən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Qrant haqqında" qanunlara təklif edilən dəyişikliklər rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədini daşıyır. Bununla yanaşı, "Elektron imza və elektron sənəd haqqında" Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılmasını nəzərdə tutur. Qanunlara, həmçinin uyğunlaşdırma xarakterli dəyişikliklər də təklif olunur.

Hər üç sənəd ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda təsdiq edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edərək bildirib ki, həm iclasın, həm də növbədənkənar sessiyanın gündəliyinə daxil olan məsələlər başa çatıb. Növbədənkənar sessiya dövründə Milli Məclisin 8 iclası keçirilib, 35 qanun və qərar qəbul edilib.

Sahibə Qafarova əminliklə qeyd edib ki, bu qanunvericilik aktları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən hərtərəfli islahatların, quruculuq işlərinin hüquqi bazasını daha da möhkəmləndirməyə və təkmilləşdirməyə kömək edəcək.

Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlərin görüldüyünü söyləyən Sədr deyib ki, pandemiya dövrünün şərtləri nəzərə alınmaqla, xaricdəki həmkarlar ilə videokonfrans formatında da bir sıra görüşlər keçirilib və danışıqlar aparılıb.

Sahibə Qafarova həm yaz, həm də növbədənkənar sessiyalarda görülmüş işlərin gələn sessiyanın da uğurlarına möhkəm zəmin yaradacağına inamını bildirib və səmərəli fəaliyyət üçün deputatlara təşəkkürünü ifadə edib.

Milli Məclisin Sədri deyib: "Bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin qərarı ilə hər il iyunun 30-da Beynəlxalq Parlamentarizm Günü qeyd edilir. Bu gün biz qürurla söyləyə bilərik ki, Azərbaycan xalqının zəngin parlamentarizm ənənələri vardır və dünya miqyasında parlamentarizmin inkişafına xalqımız da dəyərli töhfələr verib.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, eləcə də bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi Azərbaycan xalqının demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərib. Azərbaycan parlamenti öz fəaliyyətini demokratik prinsiplər əsasında qurub. Dünyada birincilər sırasında və Şərq aləmində ilk dəfə olaraq bu parlament qadınlara seçki hüququ verib.

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən sonra digər dövlət orqanları kimi onun parlamenti də ləğv edilib. Sovet hakimiyyəti dövründə qanunvericilik orqanı məhdud səlahiyyətlərə malik olub. Lakin belə bir şəraitdə də Azərbaycan xalqı parlamentarizm ənənələrini qoruyub saxlaya bilib. Sovet İttifaqının tərkibində Azərbaycan müstəqil dövlət olmasa da, həmin dövr gələcək dövlət müstəqilliyi üçün əsasların formalaşması baxımından mühüm rol oynayıb. Xüsusən dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanda heyrətamiz quruculuq və yaradıcılıq dövrü yaşanıb. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə Azərbaycanın böyük sosial-iqtisadi və intellektual potensialı var idi".

Müstəqilliyinin ilk illərində xalqımızın ağır böhran və sarsıntılarla üzləşərək çıxılmaz vəziyyətə düşdüyünü xatırladan Milli Məclis Sədri deyib: "Azərbaycan Respublikası XX əsrin əvvəllərində mövcud olmuş müstəqil dövlətimizin aqibətini yaşamaq təhlükəsi qarşısında idi. Lakin 1993-cü ilin iyun ayında böyük siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı parçalanıb dağılmaqdan, müstəqil dövlətimizi məhv olmaqdan xilas etdi. Ulu Öndərin böyük siyasətə qayıdışı onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə başlamışdır. Heydər Əliyev 1993-cü ilin oktyabrında prezident seçilənədək dörd ay parlamentə rəhbərlik etmişdir. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun ilk addımları məhz bu dövrdə və bu binada başlamışdır. Heydər Əliyevin Azərbaycan parlamentinin Sədri seçilməsi ölkəmizdə qanunvericilik orqanının nüfuzunu yüksək səviyyəyə qaldırmış və onun peşəkar nümayəndəli orqan kimi formalaşdırılması istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir".

Parlamentin Sədri bildirib ki, müstəqil dövlətimizin 1995-ci ildə qəbul edilən Konstitusiyası əsasında səmərəli idarəçilik mexanizmi qurulub, hüquqi dövlətin əsas atributlarından olan real hakimiyyət bölgüsü həyata keçirilib, peşəkar parlament - Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırılıb. Ötən dövrdə Azərbaycan parlamenti ölkədə həyata keçirilən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, genişmiqyaslı siyasi, iqtisadi, sosial və hüquqi islahatların qanunvericilik bazasını təmin etməyə nail olub, Azərbaycanın dünya birliyinə inteqrasiyası üçün əsaslı zəmin yaradıb. Milli Məclis bir çox ölkələrin parlamentləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurub, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının parlament məclislərinin fəal üzvü olub.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu gün dünyanın tanınmış siyasi liderləri və dövlət başçıları sırasında layiqli yer tutan Prezident İlham Əliyev ölkəmizdə parlamentarizm ənənələrinin inkişafına böyük töhfələr verib. Dövlətimizin başçısı İlham Əliyev 8 il Azərbaycan parlamentinin deputatı olub. O, Avropa Şurasının Parlament Assambleyasında nümayəndə heyətimizə uğurla rəhbərlik edib, parlament Assambleyası Sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilib. Məhz həmin dövrdə bu təşkilat Azərbaycanın haqq işini dəstəkləyən bir neçə sənəd qəbul edib.

"Prezident İlham Əliyev Milli Məclisin fəaliyyəti ilə bağlı məsələləri dərindən bildiyinə görə qanunvericilik orqanına çox böyük diqqət, qayğı və hörmət göstərir. Dövlətimizin başçısı Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir standartlara uyğun olan çoxsaylı qanun layihələrinin hazırlanmasını və parlamentə təqdim olunmasını təmin edir. Azərbaycan parlamentində qanunyaratma və qanunvericilik fəaliyyətinin daha da təkmilləşməsi üçün görülən tədbirlər Prezident tərəfindən qətiyyətlə dəstəklənir. Ölkəmizdə parlamentarizm ənənələrinin inkişafından danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd edilməlidir. Mehriban xanım 12 ilə yaxın müddət ərzində bizim həmkarımız olub, deputat kimi xalqımıza və dövlətimizə xidmət edib. O, ölkəmizdə parlament mədəniyyətinin inkişafında mühüm rol oynayıb, dövlətimizin qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edib. Mehriban xanım bir sıra qanunların təşəbbüsçüsü, o cümlədən 4 amnistiya aktının müəllifidir. O, Milli Məclisin beynəlxalq əlaqələrinin möhkəmlənməsi üçün çox işlər görüb, Azərbaycan parlamentini xaricdə layiqincə təmsil edib.

Bu gün Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla yerinə yetirir. 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti qurucularının yaratdıqları dövlətçilik və parlamentarizm ənənələri indiki Azərbaycan Respublikası dövlətinin və parlamentinin fəaliyyətində layiqincə davam və inkişaf etdirilir. Azərbaycanda parlamentarizm ənənələrinin inkişafı sahəsində keçilmiş yola və görülmüş işlərə məhz bu gün nəzər salmağın real əsası və rəmzi mənası vardır. Mən Beynəlxalq Parlamentarizm Günü münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm, hər birinizə möhkəm cansağlığı, parlament fəaliyyətində uğurlar arzulayıram", - deyə Sədr vurğulayıb.

Sonra Beynəlxalq Parlamentarizm Günü münasibətilə Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsi ilə Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin birgə hazırladığı videoçarx nümayiş etdirilib.

İclasın sonunda Milli Məclisin Sədri Sahibə Qafarova Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edib. Azərbaycanın dövlət himni səsləndirilib və parlamentin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

# Vüqar Rəhimzadə: "Milli şura"çıların Ermənistan hakimiyyətinə dəstəyi simasızlığın pik nöqtəsidir"



***"Dövlətimizin başçısı İlham Əliyevin hər bir çıxışının, səsləndirdiyi hər bir bəyanatın mahiyyətində Ermənistanın işğalçılıq siyasətinin dünyaya çatdırılması, ədalətin bərpa olunması, həqiqətə həqiqət gözü ilə baxılması tələbi dayanır. Bu günlərdə möhtərəm Prezidentimizin Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışındakı nitqində söylədiyi fikirlər bir daha işğalçı dövlətə və ona dəstək olan dairələrə ciddi mesaj oldu.***

Hazırda diqqəti çəkən məqam möhtərəm Prezidentimizin nitqində əksini tapan reallıqlar qarşısında aciz durumda qalan Ermənistan hakimiyyətinin beynəlxalq ictimaiyyətin diqqətini özündən yayındırmaq üçün əsassız iddiaları və nə qədər təəccüblü də olsa onlara Azərbaycanın antimilli ünsürləri tərəfindən verilən dəstəkdir. Təbliğatı yalana əsaslanan, ən əsası özünə saxta tarix yazıb bu günə qədər dünyanı yalanlarına inandırmaq üçün dəridən-qabıqdan çıxan işğalçı bir dövlətə beynəlxalq dəstək uzunömürlü ola bilməz. Çünki bu yolu tutlan dövlətlər hər zaman güclü dövlətlər qarşısında əzilən olur, onların maraqlarının ifadəçisi qismində çıxış edir. Necə ki, işğalçı Ermənistanın müstəqilliyimizin ilk illərində Azərbaycanla bağlı apardığı yalan təbliğat ayaq tutub yeriyir, dünya ermənilləri "məzlum, döyülən, əzilən" xalq kimi qəbul edirdi. Azərbaycanın həmin dövrünün iqtidarının səriştəsizliyi, idarəçilik qabiliyyətinin yoxluğu, şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutması ermənilərin və erməni diasporunun fəallaşmasına meydan açmaqla yanaşı, eyni zamanda, torpaqlarımızın işğalına səbəb olmuşdur. Dövlətimizin başçısı İlham Əliyev qeyd olunan nitqində məhz bu reallıqlara diqqət yönəltmişdir. Bu günə qədər özlərində cəsarət tapıb həqiqəti etiraf etmək imkanında olmayan daxili bədxahlarımız ənənələrinə sadiqlik nümayiş etdirərək işğalçı Ermənistana dəstək olmaqla əsl simalarını ortaya qoyur, ictimaiyyətdə bir illik hakimiyyətləri dövründə əməllərinə görə yaratdıqları qınağı daha da dərinləşdirirlər. Amma unudurlar ki, zaman hakim, tarix isə yaddaşdır." Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, istər Ermənistan hakimiyyətinin, istərsə də onların Azərbaycandakı dəstəkçilərinin, "Milli şura"çıların dövlətimizin başçısının söylədiyi fikirlərin guya ölkəmizə aid olması kimi əsassız, gülünc doğuran iddialarına gəlincə, bu gün işğalçı dövlət heç bir sahədə Azərbaycanla rəqabət aparmaq imkanında deyil: "İqtisadi böhran içəriçində çabalayan Ermənistan hazırda koronavirus pandemiyasının ən ağır nəticələrini yaşamaqdadır. Azərbaycanın iqtisadi imkanları əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı addımlara yol açdı. Azərbaycan ilə Ermənistanın sosial-iqtisadi inkişafı, regional və dünya siyasətində rolu və yeri arasında aydın görünən kəskin fərqləri geniş təhlil etməyə ehtiyac yoxdur. Təkcə pandemiya dövründə Azərbaycan dövlətinin istər daxildə, istərsə də beynəlxalq çərçivədə əməkdaşlığa, birliyə, həmrəyliyə verdiyi töhfələrə diqqət yetirmək kifayətdir. Türk Şurasının, Qoşulmama Hərəkatının videoformatda konfranslarının keçirilməsi təşəbbüsü ilə çıxış edib bunu əməli fəaliyyətində təsdiqləyən Azərbaycan növbəti uğuru ilə diqqət çəkir. Belə ki, 130 ölkə dövlətimizin başçısı İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəklədi. Yenə də bu təşəbbüsün əleyhinə çıxan, ona dəstək verməyən işğalçı Ermənistan oldu. Bu da başadüşülən idi. Səylərin birləşdirilməsi fonunda hər bir ölkə malik olduğu təcrübəni ortaya qoymalı, ümumi yanaşmanı dəstəkləməlidir. İşğalçı Ermənistan pandemiyanın ən ağır nəticələrini yaşayırsa, yoluxma sayına görə dünyada liderliyi ələ alırsa, bu halda baş nazir Nikol Paşinyan hansı təcrübədən, qabaqlayıcı tədbirin görülməsindən bəhs edə bilər? Nikol Paşinyan bu məsələdə də aciz vəziyyətə düşdüyündən çıxış yolunu təşəbbüsü "bəyənməməkdə" gördü. Amma unutdu ki bu, çıxış yolu yox, acizliyin, zəifliyin, bir dövlət olaraq inkişaf modelinə malik olmamağın, hər zaman olduğu kimi, bu məsələdə də digər dövlətlərdən asılılığın göstəricisidir. Belə olan təqdirdə dövlətimizin başçısı İlham Əliyevin Ermənistan hakimiyyətinin ünvanına söylədiyi fikirlər Azərbaycana necə aid edilə bilər?".

Baş redaktor qeyd edib ki, ən əsası pandemiya Azərbaycanın yenilkçi, innovasiyalar sahəsində böyük irəliləyişlərə malik olan ölkə olduğunu nümayiş etdirdi: "Bu baxımdan ki, koronavirus pandemiyası insanların sağlamlığına təhdid, iqtisadiyyata böyük zərbə olmaqla yanaşı, yeni texnologiyaların, müasir idarəçiliyin tətbiqinin önəmini açıqladı. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə "COVID-19-a qarşı birlikdəyik" devizi altında Türk Şurasının, həmçinin Qoşulmama Hərəkatının Zirvə görüşləri keçirildi. Bu müddət ərzində Prezident İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti arasında, eyni zamanda, Asiya İnkişaf Bankının, "Signify" və CISCO şirkətlərinin təşəbbüsü əsasında bu qurumların rəhbərləri ilə dövlətimizin başçısı arasında videoformat şəklində konfranslar keçirildi. Bütün bu addımlar ölkəmizin yeni texnologiyaların inkişafı və tətbiqi sahəsində əldə etdiyi təcrübələrin aydın mənzərəsini yaradır".

V.Rəhimzadə qeyd edib ki, Azərbaycanla işğalçı Ermənistanı heç bir sahədə müqayisə etmək mümkün deyil: "Ermənistan demokratik dəyərlərə etinasız münasibət bəsləyən, qonşu dövlətin ərazisinin 20 faizini 30 ilə yaxın müddətdə işğal altında saxlamaqla beynəlxaq hüququn norma və prinsiplərini kobud şəkildə pozan, ümumiyyətlə, bu prinsiplərin mahiyyətini dərk etməyən bir ölkədir. İşğalçı dövlətdə bu gün siyasi opponentlərə, müstəqil mediaya, vətəndaş cəmiyyəti institutlarına və fəallarına qarşı ciddi təzyiqlər göstərilir. Amma təəccüb doğuran, eyni zamanda, hər zaman müxtəlif sualların yaranmasına səbəb olan dünyanın bu gerçəkliklərə hələ də göz yummasıdır. İnanmaq istərdik ki, beynəlxalq birlik bu gün dünyanı silkələyən, insanların sağlamlığına və iqtisadiyyata böyük təhdid olan koronavirus pandemiyasına qarşı 130 ölkənin dəstəyini qazanan təşəbbüsün işğalçı Ermənistanı "razı salmamasının" səbəblərini araşdıracaq, artıq ədalət meyarına söykənərək işğal edilmiş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi ilə bağlı onillərdir kağız üzərində qalan qərarları reallaşdıracaq".

Baş redaktor dövlətimizin başçısı İlham Əliyevin Ermənistanın ünvanına səsləndirdiyi fikirlərə daxili bədxahlarımızdan gələn dəstəklə bağlı fikirlərini bir daha belə ümumiləşdirib ki, qondarma "Milli Şura"nın sədri Cəmil Həsənlinin, bu qurumda təmsil olunmuş digər fəalların, habelə keçmiş səfir Arif Məmmədov kimi xaricdə yaşayan bəzi bədxahların milli hisslərini tam itirmələri, hakimiyyətə qarşı deyil, artıq xalqa və dövlətə qarşı mübarizə aparması, "Azərbaycana nə qədər pisdirsə, bizə o qədər yaxşıdır" prinsipindən çıxış etməsi, öz iddialarını gerçəkləşdirmək üçün hətta işğalçı Ermənistanı təbliğ etməkdən, vətənlərini isə ləkələməkdən belə çəkinməmələri bu ünsürlərin nə qədər simasız, xəyanətkar, şəxsi ambisiyalarının quluna çevrildiklərini ortaya qoyur: "Amma bu antimilli ünsürlər unudurlar ki, ictimai qınaq ən böyük cəzadır. Belə olmasaydı, bu günə qədər ölkədə keçirilən seçkilərdə varlıqlarını belə nümayiş etdirmək üçün prosesə qatılmaq cəsarəti tapar, illərdir boykot yolunu tutmazdılar. Xalq bu ünsürlərin qiymətini çoxdan verərək onları tarixin zibilliyinə atıb. Zibilliyi özlərinə məkan seçən bələlərindən ancaq müxtəlif dairələrin istəklərinə uyğun addımlar gözləmək olar. "Milli Şura"nın son videokonfransından yayılan görüntülərdən də aydın görünür ki, bu qurumun əsas vəzifəsi Azərbaycan hakimiyyətini şərləməkdir. Bu etiraf onların əsl simasını və xislətini aydın nümayiş etdirir. Hər zaman qeyd etdiyimiz kimi, Vətənə, dövlətə xəyanət bağışlanmaz. Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bu duyğular yoxdursa, həmin insan mənəviyyatsızdır. Bu ünsürlər, eyni zamanda, unudurlar ki, doğru yol tutmaqla, dövlətinə, xalqına bağlılıq ruhunda, zəhmətlə qazanılan kiçik məbləğ dövlətini, xalqını satmaqla əldə olunan milyonlardan daha qürurvericidir. Çünki itmiş mənəviyyatı milyonlar xərcləsən belə bərpa etmək mümkünsüzdür".

# "Ermənistan istər regional, istərsə də beynəlxalq layihələrdən kənarda qalıb"



***"Ümumiyyətlə, Emənistanın regiondakı bugünkü rolu ötən əsrin əvvəlində çar Rusiyası parçalanandan sonra ermənilərin bölgədə tutduğu mövqeni və göstərdiyi fəaliyyəti xatırladır. Cənubi Qafqaz ölkələrindən birinin (Azərbaycan) ərazisinin 20 faizini işğal etmiş Ermənistan regionda qeyri-sabitliyin əsas mənbəyinə çevrilib. Rusiya ilə hərbi-siyasi müttəfiqlikdən istifadə edən bu ölkə uzun illər yeritdiyi işğalçı siyasətə görə məsuliyyətdən kənarda qala bilmişdir. Lakin bu gün regionda yaranmış yeni geosiyasi durum, terrorizm və ekstremizmlə mübarizənin bütün dünya üçün prioritetə çevrilməsi onun bölgədəki mövqeyinə də öz təsirini göstərməkdədir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Olaylar.az -a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***

Ermənistan iqtisadiyyatının Azərbaycan iqtisadiyyatından müqayisəolunmaz dərəcədə zəif olduğunu bildirən Bəhruz Quliyev bildirib ki, Azərbaycan bütün cəhətlərdən Ermənistanı üstələyib və işğalçı ölkənin bizi keçmək şansına sahib ola bilməyəcəyi gözlər önündədir: "Heç bir iqtisadi imkanları olmayan, əhalisinin sosial-rifah halı günü-gündən pisləşən, ordusunda özbaşınalıqlar olan bir ölkənin inkişaf etmək şansları sıfıra bərabərdir. Ermənistan istər regional, istərsə də beynəlxalq layihələrdən kənarda qalıb, sosial-iqtisadi sahəsi digər sahələrdə olduğu kimi tamamilə çöküb. Bu gün Azərbaycan həqiqətlərini, reallıqlarını anlayan bir sıra dövlət və beynəlxalq təşkilatlar Azərbaycanı dəstəkləyirlər, Ermənistanı isə pisləyirlər. Hətta deyərdim ki, beynəlxalq təşkilatlar işğalçı dövlət olan Ermənistanın qlobal miqyasda layihədə iştirakına icazə vermirlər. Bir sözlə, Ermənistanın düşdüyü bu vəziyyət beynəlxalq münasibətlər sistemində onu uçuruma aparır".

Baş redaktor deyib ki, işğalçı ölkədə "məxməri inqilab"ın rəhbəri kimi tanınan və küçədən hakimiyyətə gələn Nikol Paşinyan bütün vasitələrə əl atsa da, istəyinə qovuşa bilmir: "Özü və ailəsi qaçaqmalçılıqla məşğul olan, Ermənistanın zəngin iş adamlarının pulunu mənimsəmək yolunu seçən Paşinyanın da Köçəryan və Sərkisyandan heç bir fərqi yoxdur. Paşinyan da elə onlar kimi bu gün yenə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı populist bəyanatlar səsləndirir. Ancaq əslində nə Paşinyan, nə ətrafı, nə də erməni xalqı güclü iqtisadiyyata və orduya malik Azərbaycanın istənilən an torpaqlarını işğaldan azad etməyə qadir olduğunu dərk etməmiş deyil. Ermənistanda hakimiyyətin siyasi opponentləri təqib edilir, həbs olunur. O cümlədən Ermənistanda zəngin iş adamlarına qarşı cinayət işləri açılır və sonra da onlar pullarını xüsusi yaradılmış fonda köçürmək məcburiyyətində qoyulur. Həmin fondlardan da sonra bu pullar mənimsənilir. Ermənistanda korrupsiya, talançılıq, rüşvətxorluq, qohumbazlıq kütləvi xarakter alıb. Bu kimi hallara qarşı artıq Ermənistan cəmiyyətində Paşinyana qarşı nifrət hissi yaranıb və erməni ekspertlər də öz yazılarda bunu qabarıq şəkildə bildirirlər".

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ermənistan hakimiyyətini tənqid etməsinin "Milli Şura"nı narahat etməsi məsələsinə də toxunan qurum rəhbəri əlavə edib ki, bu antimilli şuraçıların fəaliyyətlərinin əsas məğzi, məzmunu, xisləti antiazərbaycançılıq və antimilli yanaşma üzərində qurulub: "Siz bu gün "Milli Şura"nın təmsilçilərinin tutduğu mövqeyə fikir verin. Bu gün həm daxildə, həm də xaricdə oturub "Milli Şura"nın adından çıxış edən mühacirlər Azərbaycanın dövlətçilik mövqeyini, ümumxalq mövqeyini dəstəkləmək əvəzinə 20 faiz torpaqlarımızı işğal edən terrorçu Ermənistanı dəstəkləyirlər. Bu artıq antiazərbaycançılıq mövqeyinin göstəricisidir. Hesab edirəm ki, bu mövqe ermənipərəst qüvvələrin istədiyi və idarəetdiyi missionerlərin ortaya qoyduğu mövqedir. Bu gün antimilli şurada toplaşanların mütləq əksəriyyəti 90-cı illərin əvvəlində əldə etdiyimiz müstəqilliyimizə, yenicə qurulan dövlətçiliyimizə xəyanət edərək, yalnız öz şəxsi maraqları və havadarlarının mənafeyi naminə məkrli siyasət yürüdüblər. İndi də bu xəyanəti davam etdirirlər. Onlar Azərbaycan xalqını, milli-dövlətçilik maraqlarını, müstəqilliyimizin davamlı olmasını, dövlətçiliyimizin güclənməsini, ərazi bütövlüyümüzün bərpasını, beynəlxalq miqyasda diplomatik nailiyyətlər, nüfuz, etibar qazanmağımızı düşünmürlər. Onlar 90-cı illərdə olduğu kimi, müxtəlif təxribatlarla Azərbaycanı xaosa, qarşıdurmaya, tənəzzülə sürükləməyə çalışırlar. Bu isə yalnız işğalçı Ermənistanın maraqlarına xidmət edən, ermənipərəst düşüncədən qaynaqlanan xəyanətkar yoldur".

***Ceyhun Rasimoğlu***

# Sərt karantin rejimi uzadıla bilər - SƏBƏBLƏR

***Dünən Azərbaycanda 544 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 343 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 16968 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 9369 nəfər müalicə olunaraq sağalıb, 206 nəfər vəfat edib, 7393 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.***

Ölkədə indiyədək koronavirus infeksiyasının aşkarlanması məqsədilə 475525 test keçirilib. Son sutkada 6558 belə test olub. Koronavirusa yoluxma sayına görə Bakı, Gəncə və Qazax lider mövqelərdədir. Ya qaydalara tam riayət etməliyik, ya cəzalari çox sərtləşdirilməlidir.

Çünki başqa yol yoxdur artıq. Dünya miqyasında COVİD-19 koronavirus pandemiyasının ikinci dalğası başlanıb. Daha doğrusu, iki həftə əvvəl başlanmış bu proses son günlərdə daha da aktivləşib.

Asiya, Avropa, Cənubi və Şimali Amerikalar, Afrika, Avstraliya - elə bir məkan yoxdur ki, orada koronavirus bəlası yenidən aktuallaşmasın. Azərbaycan da istisna deyil. Lakin Avropa və Amerikadan fərqli olaraq, ölkəmizdə "koronaateistlər", yəni koronavirusun təhlükəsini hələ də anlamayan və ya anlamaqdan qətiyyətlə boyun qaçıranlar, ölümcül risklə rus ruleti oynayanlar var. Onlar az deyil və məhz bu insanlar Azərbaycanda karantin rejiminin bitmək bilməməsində suçludurlar.

Əvvəllər "Koronavirus yoxdur!" deyənlər, "Bill Geytsin qlobal çipləmə əməliyyatıdır, 5G şəbəkəsi vasitəsilə yayırlar" tipli marazmatik konspiroloji fərziyələr irəli sürənlər indi sanki inada durublarmış kimi, sosial təcrid və gigeyena qaydalarına əməl etmirlər. Belələri ictimai nəqliyyatda, ticarət obyektlərində və s. maskadan bilərəkdən istifadə etmir, etsələr də ən yaxşı halda maskanı çənənin aşağısında saxlayırlar.

Onlar öz sağlamlıqlarına laqeyd yanaşmaqla yanaşı, ətraflarındakı insanların həyatlarını riskə atırlar. Sonucda ölkədə koronavirusla bağlı statistikada yeni yoluxmaların sayı sağalan pasiyentlərin sayından çoxdur və bu, Azərbaycanın səhiyyə sisteminin çox ağır yük altında olduğunu göstərir. Xəstəxanalarda yer sayı ilə bağlı durum artıq kritik həddə çatır və belə davam edərsə, "yer yoxdur" sözlərini eşitməli olacağıq.

Karantin rejiminin tələblərinin pozulması, xüsusilə də fərdi-qoruyucu vasitələrdən, əsasən də maskalardan istifadə ilə bağlı müəyyən edilən tələblərə riayət edilməməsi kimi məsuliyyətsiz davranışlar koronavirusa yoluxmaların sayının artmasına ciddi təsir edib. Nəticə göz qarşısındadır: son günlərdə yoluxmaların sayı kəskin artdı. Qanunlara ciddi riayət etməyin, bununla bağlı daha sərt qanunların qəbul edilməsi istiqamətində addımlar atmaq zəruri ehtiyaca dönüb.

Söhbət artıq Azərbaycan vətəndaşının sağlamlığı ilə yanaşı, rifahı, gələcək genofondun qorunması, eyni zamanda dövlət və milli təhlükəsizliyimizə olan təhdidlərin qarşısının alınmasına yönələn addımlardan gedir.

Doğrudur. karantin epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulması ilə bağlı cəzalar sərtləşdirilib, cərimələr artırılıb. Qaydaları pozan vətəndaşı 200 manat, hüquqi şəxsi isə 400 manat məbləğində cərimə gözləyir.

Fəqət, cərimələr nə qədər böyük, cəzalar nə qədər ağır olarsa, vətəndaş məsuliyyəti əsas məsələdir. İstənilən pandemiyanın və ya geniş miqyasda virus yayılmasının qanunauyğunluqlarından biri belədir: "əgər insanlar çox narahatdırsa, onda narahatlıq üçün səbəb böyük deyil. Amma narahat olanlar azdırsa, onda dövlət qurumları narahat olmalıdır".

İlk baxışdan qəribə görünən bu qaydanın bəsit açması var: epidemiyalar eksponensial inkişaf edir və bu səbəbdən virusun yayıldığı dönəmdə cəmiyyətdəki arxayınlıq, rahatlıq infeksiyanı dəfələrlə sürətləndi-



rir. Tipik misal kimi İsveçrəni göstərmək olar. Müxtəlif dillərdə danışan və fərqli milli mənsubiyyətli insanların yaşadıqları kantonlar arasında koronavirusa yoluxanların statistikası ilə bağlı kəskin fərqlər mövcuddur. Belə ki, italyan və fransız dilli kantonlarda koronavirusa yoluxanlar daha çox, alman dilli kantonda isə azdır.

Başqa viruslarda olduğu kimi, koronavirusun da yoluxma statistikası "R" əmsalı ilə müəyyənləşdirilir. R koronavirus daşıyıcısı olan insanın neçə adamı yoluxdurduğunu göstərir. Məsələn, koronaviruslu insan bir nəfəri yoluxdurarsa, R əmsalı 1 olur; 5 nəfəri yoluxdurubsa, 5 olur. Almaniyada bu əmsal 1,1; Fransada - 1,3, Britaniyada 1,50-dir.

Azərbaycanda R əmsalının hesablanması ilə bağlı rəsmi statistika yoxdur. Lakin güman etmək olar ki, ölkədə bu əmsal 5,7-dən artıqdır.

Aylardan bəridir ki, ölkədə koronavirus pandemiyası ilə mübarizə aparılır. Lakin bu, sürəkli olaraq davam edə bilməzdi, çünki milyonlarla insanı uzun müddət "Evdəqal" şüarı ilə evdə, qapalı arealda saxlamaq çətin işdir. Bu səbəbdən də mayın əvvəlindən bəri karantin rejiminin yumşaldılması ilə bağlı bir sıra tədbirlər gerçəkləşdirildi.

Lakin bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda da həmin yumşalma tədbirləri koronavirusla bağlı statistikanın təhlükəli qrafik üzrə artımına səbəb oldu. Yoluxma və ölüm hallarının artımı isə karantin rejiminin yenidən bərpası ilə nəticələndi.

Azərbaycanda situasiyanı nəzarətdə saxlamaq olardı, hətta karantin rejimi bütünlüklə aradan qalxar, həyat əksər məqamlar baxımınlan normal axarına qayıdardı. Ancaq sosial izolyasiya qaydalarına və müvafiq dövlət qurumlarının tövsiyyələrinə əməl etməyənlərin sayının azalmaması nəticəsində koronavirus pandemiyası ilə bağlı durum ağırlaşdı. İyun ayının ortalarından başlayaraq koronavirus ölkədə daha sürətlə yayılmağa başlandı və sutkalıq yoluxma sayı 500-ü keçdi.

Bəhs olunan səbəbdən də iyunun 21-dən etibarən ciddi karantin rejimi və SMS-icazə sistemi yenidən bərpa olundu. Beləcə, sutkalıq yoluxma və ölüm statistikasında nisbi sabitləşmə təmin olundu.

Amma bütün bunlar ölkədə koronavirus pandemiyası ilə bağlı epidemioloji vəziyyətin qənaətbəx olması anlamına gəlmir. Çünki gündəlik yeni yoluxan xəstələrin sayı sağalanların sayından artıq olur ki, bu da öz növbəsində təcili tibbi yardımın operativliyinə mənfi təsir göstərir, səhiyyə müəssisələrinin işini bir qədər də ağırlaşdırır.

Hazırda tətbiq edilmiş ciddi karantin rejimi nəticəsində şəhər üzrə mobilliyin və ictimai nəqliyyatdən istifadənin nisbətən aşağı düşməsi müşahidə edilir. Bu tədbirlər nəticəsində növbəti günlərdə vəziyyətin nisbətən yaxşılaşması və müsbət dinamikanın əldə olunması gözlənilir.

Bununla yanaşı, hamı bilməlidir ki, üzləşdiyimiz vəziyyət kifayət qədər mürəkkəbdir və bütün dünyada bu problemin qısa müddətli və asan həlli yoxdur. Pandemiya dövrünün bir neçə həftə deyil, daha uzun müddət davam edəcəyini başa düşməli, davranış və həyat tərzimizi yaranmış vəziyyətə uyğunlaşdırmalıyıq.

Yoluxmaların statistikasına nəzər salsaq, görərik ki, vətəndaşlarımız əsasən iş yerlərində, ailə daxilində, ictimai nəqliyyatda və kütləvi yerlərdə koronavirusa yoluxurlar. İş yerlərində ümumi istifadə yerləri (mətbəx, sanitar qovşaqlar, görüş otaqları) və qoruyucu vasitələrdən istifadə etməmək (məsələn maska taxmamaq, məsafə gözləməmək) yoluxmaya əsas səbəb olan amillər sırasındadır.

Xəstəliyin ilkin simptomları olan şəxs tibbi xidmətə müraciət etmək əvəzinə öz adi həyat qaydasını davam edir, bəzi hallarda özünü müalicə etməyə çalışır, bütün bu müddət ərzində həm öz vəziyyətini ağırlaşdırır, həm də digərlərini yoluxdurmağa davam edir.

Eyni zamanda, vətəndaşların təhlükəsizlik qaydalarını kobud şəkildə pozması, virusa yoluxmuş qohumlarını, qonşularını ziyarət etməsi halları da müşahidə olunur. Problemin həlli iş yerlərində əməkdaşların sayının azaldılması, məsafəli və növbəli iş rejimlərinin tətbiqidir. Vətənaşlarımız ifrat zərurət olmazsa ictimai nəqliyyatdan istifadə etməməlidir. İctimai yerlərdə (ictimai nəqliyyat, supermarketlərin girişi və s.) müştərilərin hərarətinin ölçülməsi prosedurlarına və tibbi maskadan istifadəyə nəzarət daha da gücləndirilməlidir.

Və əfsuslar olsun ki, mövcud vəziyyət, epidemioloji durum hazırda tətbiq olunan karantin tədbirləri rejiminin uzadılmasını zəruri, hətta qaçılmaz edir. Vətəndaşlarımız birdəfəlik anlamalıdır ki, koronavirus pandemiyasına qalib gəlməyin yeganə yolu məsuliyyətli olmaq, karantin qaydalarına şəksiz və tam əməl etməkdir. Nə qədər həmrəy olub həm özümüz, həm də ətrafda olan insanlar, yaxınlarımız tərəfindən sadə qaydalara əməl etməyi təmin edə bilsək, bir o qədər tez bu vəziyyətdən çıxa biləcəyik və həyat öz adi axarına qayıdacaq. Nə qədər pozuntulara qarşı barışmaz olsaq, ətrafımızdakı insnaların biganəliyinə qarşı mübarizlik nümayiş etdirsək, bir o qədər də tez və yaxşı nəticə əldə etməyə müvəffəq ola bilərik.

# Azərbaycanda dollara tələb 22%-dən çox artıb

Dünən Mərkəzi Bankda (AMB) Azərbaycan Dövlət Neft Fondunun iştirakı ilə növbəti valyuta hərracı keçirilib. SİA bu barədə Mərkəzi Banka istinadən



xəbər verir. Məlumatda deyilir ki, ABŞ dollarına tələb iyunun 25-nə nisbətən 9,2 milyon ABŞ dolları və yaxud, təxminən, 22,1% artaraq 50,8 milyon ABŞ dolları təşkil edib. Mərkəzi Bank bildirib ki, tələb tam ödənilib. Hərracda manatın ortaçəkili məzənnəsi 1,7000 AZN/USD səviyyəsində formalaşıb.

# İran COVID-19 vaksininin sınaqlarına başlayır

İran koronavirusun (COVID-19) vaksininin istehsalı sahəsində böyük addımlar atıb və tezliklə bu vaksinin insan üzərində sınaqdan keçirilməsinə başlanacaq. SİA-nın məlumatına görə, bunu İranın səhiyyə, müalicə və tibbi təhsil naziri Səid Nəməki Farmeks (Pharmex) 2020 Dərman Preparatları Sərgisinin açılış mərasimində deyib.

S.Nəməkinin sözlərinə görə, ötən 4 ay ərzində iranlı mütəxəssislərin vaksinin istehsalı üzrə fəaliyyəti yaxından izlənilib və nəticələr çox ümidvericidir. Nazir əlavə edib ki, bu vaksinin heyvan üzərində sınağı uğurla keçib. O, bildirib ki, ölkədə koronavirusun yayılması ilə İran 60 gün



ərzində əlaqədar səhiyyə vasitələrinin idxalçısından ixracatçılardan birinə çevrildi.

S.Nəməki deyib ki, İran ötən ildə (21 mart 2019-dan -20 mart 2020-dək) səhiyyə vasitələri və dərman preparatlarının idxalını təxminən 20% azaldıb. Belə ki, təxminən 600 milyon avro vəsaitə qənaət edib. Qeyd edək ki, İranda ötən günədək 225 205 nəfər koronavirusa yoluxub, 10 672 nəfər ölüb, 186 180 nəfər sağalıb.

# Azərbaycan və Ermənistan arasındakı sosial-iqtisadi və siyasi fərqlər



***"Azərbaycanla Ermənistan arasındakı sosial-iqtisadi, siyasi sistemin qurulmasında və onun dayanıqlılığında olan fərqlər yerlə göy qədərdir. İlk öncə vurğulamaq lazımdır ki, Ermənistanın dövlətçiliyi son illər ərzində demək olar ki, məhv olub. Bu dövlət tamamilə xarici faktorlardan asılıdır. Onun nüstəqil xarici siyasət aparmaq imkanları demək yoxdur. Lakin Azərbaycan müstəqil siyasət aparan bir dövlətdir. Öz resurslarına güvənən, onlara arxalanan bir dövlətdir". Bu sözləri SİA-ya açıqlamasında siyasi məsələlər üzrə ekspert, politoloq İlqar Vəlizadə deyib.***

O bildirib ki, Azərbaycanın iqtisadiyyatı da bir çox parametrlərinə görə nəinki Ermənistandan, ümumiyyətlə, regionda yerləşən ölkələrdən daha dayanıqlıdır və daha möhkəm əsaslara söykənərək inkişaf edir:

### Hər il əmək resursları hesab ediləcək kütlə Ermənistanı tərk edir...

"Buna həm ötən illər ərzində yaranmış valyuta ehtiyyatlarımız, həm Azərbaycanın zəngin resurs bazası, həmçinin, ölkədə əmək bazarının genişləndirilməsinə imkanların yaradılması təsir edir. Ölkəmizdəki əmək resursları bazası Qafqaz ölkələrindən daha böyük və genişdir. Bu əsaslara söykənərək Azərbaycanın iqtisadiyyatı da inkişaf edir. Həmçinin, Azərbaycanın digər ölkələrlə həyata keçirdiyi layihələr düşünməyə imkan verir ki, ölkəmizin iqtisadiyyatı həm dünya iqtisadiyyatına, həm də regional iqtisadi sistemə inteqrasiya olunub. Baxmayaraq ki, son dövrlər ərzində bütün dövlətlərdə iqtisadi problemlər yaşanır, lakin, resursları daha çox olan ölkələrdə bu problemləri tənzimlənməyə imkanlar var. Bu problemlərin sosial-siyasi fəlakətə çevrilməməsi üçün dövlətlər məyn səylər göstərir, xüsusilə də Azərbaycan. Ermənistanın isə adicə əmək bazası belə geniş deyil, hətta, ilbəil azalan bir bazadır. Hər il əmək resursları hesab ediləcək kütlə ölkəni tərk edir. Digər tərəfdən zəngin təbii ehtiyyatlara malik olan bir ölkə deyil. Ermənistanın ixrac etdiyi təbii ehtiyyatların dünya bazarındakı qiyməti isə çox aşağıdır. Ermənistan onlardan kifayət qədər gəlir götürə bilmir".

Politoloq vurğulayıb ki, Ermənistanın torpaqlarının 80 faizi düşmən ölkələrlə əhatə olunub, bu da Ermənistanın öz siyasi yanaşmasının nəticəsidir və Ermənistan qonşu Türkiyə və Azərbaycana düşməncə münasibətini davam etdirir:

### Ermənistan regional layihələrin heç birində yoxdur...

"Digət bir tərəfdən də Ermənistan regional layihələrdən təcrid olunub. Bu regional layihələr ona heç bir gəlir gətirmir. Azərbaycan isə təkcə keçən il nəqliyyat infrostruktur (tranzit) imkanlarından istifadə etməklə yarım milyard dollara yaxın gəlir əldə edib. Ölkəmiz təkcə neft və qaz ixrac etmir, son illər ərzində elektrik enerjisini də yaxın və regional ölkələrə ixrac edir. Bundan da müəyyən mənfəət əldə edir. Azərbaycan bütün mənfəət mənbələrindən uğurla yararlanır.

Hazırda Azərbaycanın üç peyki fəaliyyət göstərir. Bu peyklərdən keçən il 50 milyon dollara yaxın gəlir əldə etmişik. Həmçinin, Trans-Avrasiya Super İnformasiya Magistralı layihəsi də Azərbaycan üzərindən keçir. Bu böyük bir layihədir və müxtəlif regional ölkələri əhatə edir. Bu layihənin həyata keçirilməsindən Azərbaycan da mənfəət əldə edir. Bu layihələrin hamısı perspektivə hesablanmış layihələrdir və bizə imkan verir ki, bu layihələri həyata keçirməklə daimi gəlir əldə edək. Ermənistan bu kimi layihələrin heç birində yoxdur. Ola da bilməz. Digər tərəfdən hazırda risklər çoxdur, problemlər çoxdur və pandemiya bu problemlərin başında duran əsas amildir. Bunların öhdəsindən gəlmək üçün sadaladığımız resurslardan istifadə olunmalıdır".

İlqar Vəlizadə qeyd edib ki, pandemiya ilə əlaqədar Azərbaycanda modul tipli xəstəxanalar tikildi və xaricdən müasir avadanlıqlar gətirildi, lakin, Ermənistan bunu belə həyata keçirlə bilmədi:

### Son illər ərzində Ermənistana daxil olan sərməyələr də azalıb...

"İstənilən sahədə Ermənistanla Azərbaycan arasında fərqlər çoxdur. Ermənistan bununla belə işğalçılıq siyasətindən əl çəkmir. Ermənistan digər ölkələrdən aldığı kreditlər hesabına idarə olunan ölkədir. Belə bir vəziyyətdə bu kiçik dövlətin müqayisə etmək olmaz. Son illər ərzində Azərbaycan müxtəlif ölkələrlə investisiya layihələri həyata keçirir. Türkiyə, Rusiya, Avropanın Balkan ölkələrində, Gürcüstanda və Mərkəzi Asiyada layihələrimiz var. Bunların hamısı uzunmüddətli və gəlir gətirən layihələrdir. Azərbaycanın səhmləri burada vacib rol oynayır. Bəs, Ermənistan hansı investisiya layihəsində iştirak edir? Heç birində. Xaricdə onun heç bir investisiya və sərmayə qoyuluşu yoxdur. Son illər ərzində Ermənistana daxil olan sərməyələr də azalıb. Ermənistanın statistika idarəsinin göstəriciləri də bunu təsdiqləyir. Belə vəziyyətdə Ermənistandakı bu uçurum daha da dərinləşəcək. Bu da Azərbaycana regionda dominantlığı saxlamağa və Ermənistana qarşı sosial-siyasi, iqtisadi və hərbi-siyasi təzyiqləri artırmağa imkan verəcək".

***Nigar Məmmədova***

# Anar Xəlilov: "Müxalifət ucuz qarayaxma kampaniyası aparır"



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 26 iyun Ordu Günü münasibəti ilə hərbiçilərlə görüşündə çıxışında Azərbaycan dövlətinin və Azərbaycan ordusunun gücündən danışdı və işğalçı Ermənistanın gücsüzlüyünü və perspektivsizliyini də konkret faktlarla göstərdi. Prezident müstəqilliyin ilk illərində Azərbaycanın dövlətçiliyini təhlükə altında qoyan AXC-Müsavat cütlüyünü kəskin tənqid etdi. Sual yaranır Cənab Prezidentin bu əsaslı mövqeyindən indiki müxalifət partiya sədrləri nə dərəcə də nəticə çıxara bilərlər?

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov "Səs" qəzetinə açıqlamasında bildirib ki, son illər Azərbaycanın ordu quruculuğu sahəsində əldə etdiyi uğurlar, müasir standartlara cavab verən peşəkar hərbi kadrların yetişdirilməsi alqışa layiqdir: "Sovet İttifaqından bizə miras qalan köhnə hərbi hissələr və hərbi texnikalar müstəqil müasir dövlətçiliyimizin keçən qısa dövrü ərzində təmamilə yenilənmişdir. Cənab prezidentin də qeyd etdiyi kimi bütün hərbi hissələr, şəhərciklər, bazalar faktiki olaraq yenidən qurulub. Artıq hərbi hissələrin 90 faizində tikinti-bərpa və ya yenidənqurma işləri tamamlanıb. Bu cənab prezidentin, Ali baş komandanın öz ordusuna, əsgərinə göstərdiyi qayğının təzahürüdür. Qürurla eməliyik ki, Azərbaycan ordusu artıq dünyanın 50 ən güclü ordusu sırasındadır. Milyardlarla ordumuza qoyulan vəsait texniki təhcizat baxımından Azərbaycan ordusunu güclü ordular sırasına çıxarmışdır. Bu gün ordumuzun xidmətində olan zirehli texnikalarımız, hava hücumundan müdafiə kompleksləri, silah sursat, texniki təhcizat, müasir modernləşdirilmiş döyüş təyyarələrimiz, vertolyotlarımız, artireliya qurğularımız və s Azərbaycan ordusunu müasir güclü və öz torpaqlarını bu gün işğaldan azad etməyə qadir olduğunu isbat edir. Bütün bunlar cənab prezidentin ordu quruculuğunda gərgin əməyinin bəhrəsidir. Bu gün ən diqqəti çəkən məsələ isə Azərbaycanın öz Müdafiə Sənayesi vasitəsilə 1300 adda hərbi təyinatlı məhsul istehsal etməsidir".

Anar Xəlilov bildirib ki, görülən işlər sayəsində ordumuz öz gücünü 2016 və 2018-ci ilin hərbi əməliyyatlarında göstərdi və düşmənə layiqli cavab verdi torpaqlarımızın bir qismin azad etdi: "Nəzərə almaq lazımdır ki, torpaqlarımız işğal olunanda Azərbaycan ordusu yox idi. Bu istiqamətdə yarıtmaz və hərbə aid olmayan insanların səriştəsizliyi nəticəsində Sovet ordusundan qalan hərbi texnikalar və sursatlar düzgün istifadə olunmadı ordu qurulmadı. Ayrı-ayrı könülü batalyonlar ordu funksiyasını yerinə yetirirdi. Məhz o dövrün siyasi çəkişmələri və məsuliyyətsiz kadrlarının sayəsində nə ordu qura bildik nə də torpaqlarımız qoruduq. Nəticədə 20 faiz torpaqlarımız işğal olundu. Ümummilli Lider Heydər Əliyevin xalqın çağrışı ilə yenidən hakimiyyətə gəlməsi ilə vəziyyət təmamilə dəyişdi dövlət və ordu quruculuğuna başlanıldı. Cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət isə bu gün güclü Azərbaycan dövləti və ordusunu yaratdı. Bu gün inamla deməк olar ki, biz torpaqlarımızı azad etməyə qadirik və bunu edəcəyik. Lakin yenə də o dövrün səriştəsiz kadrları bu gün də eyni ampulda qalaraq bütün bu görülən işlərə qarşı müxalif mövqe sərgiləyir qarayaxma kampaniyası aparır".

A.Xəlilovun sözlərinə görə, dağıdıcılıq təfəkkürünə malik bu insanlar uğurları görmək istəmir yalnız kiçik baş verən problemi şişirdib hay küy salır insanların probleminin həllini yox əksinə onlara mane olur: "Müxalifətçilik bu düşüncədə olmamalıdır. Müxalifət tənqidi sivil və siyasi etika üzərində qurmalıdır. Məntiqli tənqid etməli amma eyni zamanda uğurları da dilə gətirməlidir. Bütün dünyada normal iqtidar-müxalifət münasibətləri bu cür tənzimlənir. Bunlar isə uğurları görəndə daha da aqresivləşirlər. Bu gün Qarabağımızı azad etməyimizin bir yolu da təkcə güclü ordu deyil eyni zamanda vətən naminə kimliyindən asılı olmayaraq həmrəy olmağımızdan keçir. Azərbaycanın bütün müxalif partiya rəhbərləri bunu dərk etməli dövlətçilik və ərazi bütövlüyü məsələsində dövlətə dəstək olmalı ona mane olmamalıdırlar. Başqa cür mövqe ancaq düşmənə xidmət edir. Cənab prezidentin bu məsələ ilə bağlı mövqeyi xalq tərəfindən dəstəklənir, müxalif liderlər də bunu görməli və öz fəaliyyətlərində dönüş etməlidirlər. Bunu etmək istəməyən müxaliflər daim xalqın qınağında olacaq və heç bir siyasi uğur qazana bilməyəcəkdir".

***Gülyana***

# Dünyada yeni dəhşətli virus yayılır




***Çinli alimlər donuzlardan insanlara ötürülə bilən və pandemiya riski daşıyan yeni qrip virusu aşkar ediblər. SİA xəbər verir ki, 2011-2018 illər arasında donuzlarda qrip viruslarını araşdıran bir qrup çinli alim G4 EA H1N1 adı verilən yeni virus üzə çıxarıb.***

İnsanlara ötürülə və tənəffüs yollarında çoxala bilən yeni virus, 2009-cu ildə Meksikada ortaya çıxan və dünyada təxminən 800 min insana yayılan "donuz qripi" kimi tanınan H1N1 virusu ilə oxşar quruluşa sahibdir. Araşdırmalarda donuz fermalarında işləyənlərin qanında yüksək miqdarda virus aşkar edilib. Alimlər yeni olması səbəbiylə insanların immunitetinin olmadığı virusun mutasiyaya uğraya biləcəyi və sürətlə yayıla biləcəyi riskinə diqqət çəkərək, donuz fermalarında çalışan insanlar da daxil olmaqla, əhalinin nəzarət altına alınmasının vacibliyini vurğulayıb. Təsərrüfatların yerləşdiyi bölgələrdə yaşayan milyonlarla çinlinin ən böyük risk qrupu olduğu bildirilib. Qeyd edək ki, ilk dəfə 2009-cu ildə Meksikada meydana çıxan "donuz qripi" 191 ölkədə 8 mindən çox insanın həyatını itirməsinə səbəb olub.

# Sosial güzəştlərdən istifadə edən müəllimlərin sayı açıqlanıb

Bu il yerdəyişmə müsabiqəsi zamanı sosial güzəştlərin nəzərə alındığı müəllimlərin sayı açıqlanıb. SİA-nın məlumatına görə, müəllimlərin yerdəyişməsi müsabiqəsi zamanı hərbçi ailələri, şəhid ailələrinin üzvləri üçün müəyyən güzəştlər tətbiq edilərək onlara üstünlük hüququ verilir. Bu il şəhid, hərbçi ailəsinin üzvü olduğuna görə imtahan nəticəsi artım əmsalı ilə hesablanmış namizədlərin sayı 119 nəfər olub. Onların 118-i qadın, 1-i kişidir. Yaşadığı və qeydiyyatda olduğu yerə görə imtahan nəticəsi artım əmsalı ilə hesablanmış namizədlərin sayı 83 nəfər olub. Onların 47-si qadın, 36-sı kişidir.

Ümumilikdə yerdəyişmə müsabiqəsində iştirak edən namizədlərin 6 faizinə şəhid, hərbçi ailəsinin üzvü olduğuna görə, 4 faizinə yaşadığı və qeydiyyatda olduğu yerə görə imtahan nəticəsi artım əmsalı tətbiq edilib. Bu il iş yerini dəyişən müəllimlərin çoxu qadın olub. İş yerini dəyişən 1934 nəfər müəllimin 1504-ü (78 faizi) qadın, 430-u (22 faizi) kişi olub. Xatırladaq ki, müsabiqə zamanı bəzi sosial amillərlə əlaqədar namizədlərin topladıqları bal artım əmsalına vurularaq hesablanır.

# Ermənistan - koronavirus və siyasət xaosuna doğru...

*“Hraparak”: “Hakimiyyət digər məsələlərlə yanaşı, Konstitusiya məhkəməsi məsələsində də qorxulu diletantlıq və çirkli siyasət ortaya qoyub”*



Ermənistanda siyasi, iqtisadi, hüquqi və səhiyyə böhranının sürətli şəkildə ölkəni iflic vəziyyətinə gətirib-çıxarması faktı ölkə mətbuatında həyəcan təbili olaraq vurulmaqdadır. SİA xəbər verir ki, bununla bağlı “Hraparak” nəşri yazır. Qəzet qeyd edir ki, konstitusion hüquqlar üzrə mütəxəssislər onlarla söhbətlərində böhranla bağlı ürək açmayan proqnozlar verirlər.

**Paşinyan hökuməti özü-özünü dalana dirəyib və oradan sağ-salamat şəkildə çıxacağı inandırıcı görünmür**

“Hakimiyyət digər məsələlərlə yanaşı, Konstitusiya məhkəməsi məsələsində də qorxulu diletantlıq və çirkli siyasət ortaya qoyub. “Konstitusiya məhkəməsi ətrafındakı proseslərdə bir sıra təhlükəli qərarlar verilib”, deyən mütəxəssislər bildiriblər ki, Paşinyan hökuməti özü-özünü dalana dirəyib və oradan sağ-salamat şəkildə çıxacağı inandırıcı görünmür. Bu iddianı irəli sürən Ermənistanın siyasi texnoloqları həmçinin bildirirər ki, bugünlərdə müxalifət cinahının fəallaşmasını da nəzərdən qaçırmaq olmaz. Ümumilikdə vəziyyət ani halda nəzarətdən çıxa, ölkə xaosa sürüklənə bilər.

**“Hraparak” yazır və qeyd edir ki, digər tərəfdən, parlamentdə koronavirusa yoluxanların sayı çoxdur və kvorum baş tutmaya da bilər...**

Mütəxəssislər Konstitusiya məhkəməsinin yeni hakimlərinin bir gündə seçiləcəklərini proqnozlaşdırıblar və bildiriblər ki, hakimiyyət bu yolla böhranı adlamağı düşünür. Lakin bir gündə 3 hakimi seçmək mümkün olmadığı üçün, növbəti qanun pozuntularına yol veriləcək. “Kifayət edir ki, onlar Konstitusiya məhkəməsi haqqında” qanunu yaddan çıxarsınlar və onu pozsunlar”, deyə “Hraparak” yazır və qeyd edir ki, digər tərəfdən, parlamentdə koronavirusa yoluxanların sayı çoxdur və kvorum baş tutmaya da bilər.

***Rövşən RƏSULOV***

# “İşğala son qoymağın ən real yolu müharibədir”



“Bu gün Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında növbəti online görüş keçiriləcək. ATƏT-in Minsk Qrupunun görüşü keçirməkdə əsas məqsədi münaqişənin müharibə mərhələsinə keçməsinə imkan verməməkdir”. Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib. Politoloqun sözlərinə görə, bəzən bəzi deputatlarımız və ekspertlərimiz “münaqişənin həlli, açarı Rusiyadadır”, deyə bildirirlər: “Bu məsələyə aydınlıq gətirmək istərdim. Rusiya siyasi təzyiq edərək erməniləri kompromisə təhrik edə bilməz. Reallıq budur ki, bu gün Ermənistan cəmiyyəti torpaqları özünkü hesab edir və işğal etdikləri torpaqları heç bir təzyiqlə qaytarmaq niyyətində deyil. Belə olan təqdirdə işğala son qoymağın ən real yolu müharibədir. Hazırkı dünyada müharibə etmək “hüququ” hegemon dövlətlərin monopoliyasındadır. Belə olan təqdirdə, bizə lazım olan bizim ərazi bütövlüyünü bərpa etdiyimiz zaman Rusiyanın bunu səssiz qarşılamasıdır. Moskvanın Azərbaycan ordusunun hərbi əməliyyatlarına başlamasına müdaxilə etməməsi.

Qüdrət Həsənquliyevin müsahibəsini mətbuatdan oxudum. Doğrudan da, Bakı-Moskva müzakirələri vacibdir. Bunun üçün isə, fəal şəkildə Azərbaycan - Rusiya arasında Qarabağ danışıqlarına ehtiyac var. Lakin, bu heç də asan proses deyil. Rusiyanın geosiyasi maraqlarını, bu dövlətin xarici siyasətlə bağlı qərarlarında XİN institutunun vacib rol oynadığını və bu quruma erməni Lavrovun başçılıq etdiyini nəzərə alsaq onların Cənubi Qafqazda müharibə başlayarsa susması qarşılığında çox böyük bazarlıq siyahısı olacaq . Bir məsələni də unutmayaq kı, ABŞ, Fransa kimi dövlətlər Rusiya kimi münaqişənin indiki vəziyyətdə qalmasında maraqlıdırlar. Yəni sabah münaqişə alovlanarsa Qərbdəki erməni diaspora təşkilatları və onların pulla aldıqları ictimai - siyasi xadimlər anti - Azərbaycan bəyanatları verəcəklər. Buna görə, biz bu istiqamətdə də tədbirlərimizi görməliyik”.

***Ceyhun Rasimoğlu***

# Azərbaycan-İran sərhədində atışma olub, ölən var



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir. Bu barədə SİA-ya DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib. Bildirilib ki, bu tədbirlər nəticəsində 2020-ci ilin 29 iyun tarixində külli miqdarda narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.

Qeyd olunub ki, həmin gün saat 23:50 radələrində DSX-nin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Beyləqan rayonunun Aşağı Çəmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 2 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkar olunub. “Sərhəd pozucularının silahlı olmaları, üzərilərində 2 ədəd kisədə yük olması müşahidə edilib. Sərhəd zastavası “Silaha” komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən “Dayan” əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmamış, sərhəd naryadına qarşı odlu silahdan atəş açaraq sərhədçilərin həyatına qəsd ediblər.

Sərhəd naryadı tərəfindən “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq silah tətbiq olunub, sərhəd pozucularından biri aldığı güllə yarasından hadisə yerində ölüb. Digər sərhəd pozucusu ərazinin sıx meşəlik, hava şəraitinin qaranlıq olmasından istifadə edərək geri qaçıb.

Əraziyə baxış zaman 1 ədəd lüləsi kəsilmiş tüfəng, 2 ədəd kisədə təxmini çəkisi 33 kq olan narkotikə bənzər maddə aşkar edilib. Hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib. Hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin və Hərbi Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir”, - məlumatda bildirilib.

# “Ermənistan hakimiyyətinin məsuliyyətsizliyi sonrakı dövrlərdə də özünü göstərdi”

“Ümumiyyətlə Ermənistanın koronovirusla mübarizədə acınacaqlı vəziyyətə düşməsinin ilkin əlamətləri hələ 2020-ci ilin aprel-may aylarının əvvəllərindən hiss olunmağa başlanmışdı. Xüsusilə də mart ayında dünyanın bir sıra dövlətləri, o cümlədən Azərbaycan pandemiya ilə mübarizədə ciddi və sistemli tədbirlər görməyə başladığı bir vaxtda Ermənistanda hətta hökumət səviyyəsində buna o qədər də ciddi yanaşmırdılar və yaranmış təhlükənin sanki özü-özünə ötüşəcəyi ilə bağlı yalançı rəy formalaşmışdı. Bütün bunlar ona gətirib çıxardı ki, artıq may ayı ərzində Ermənistanda pandemiyanın sürəti demək olar ki, bütün ölkələri üstələməyə başladı. Digər tərəfdən Ermənistan hakimiyyətinin pandemiya ilə mübarizədə məsuliyyətsizliyi sonrakı dövrlərdə də özünü göstərdi”. Bunu SİA-ya “Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, bütün başqa ölkələr, o cümlədən region ölkələri ciddi özünütəcrid qapalı şəraitə keçdiyi bir vaxtda Ermənistan rəhbəri lüzum olmadığı bir vaxtda, beynəlxalq hüquq normaları və insanlıq prinsiplərinə zidd olaraq başqa ölkələrə, o cümlədən də işğal olunmuş torpaqlarda keçirilən tədbirlərdə həvəslə, ard-arda iştirak etməyə başladı: “Baxmayaraq ki, işğal olunmuş Dağlıq Qarabağın özünün acınacaqlı vəziyyətdə olduğu ilə bağlı məlumatlar var idi amma Ermənistan rəhbəri bunu da nəzərə almadı. Ermənistanın bu gün acınacaqlı durumda olması bir tərəfdən hakimiyyətin xalqın sağlamlığı qarşısında məsuliyyətsizliyi ilə bağlıdır, digər tərəfdən təhlükəyə qarşı cəmiyyətin gücünü səfərbərliyə almaqdakı təcrübəsizliyi ilə bağlıdır. Həmçinin də deyərdim ki, lüzumsuz yerə bu məsələdə dünyanın köməyinə bel bağlaması ilə bağlıdır. Hətta Azərbaycan Prezidentinin təşəbbüsü ilə dünya pandemiyaya qarşı mübarizədə BMT-nin qlobal bir sessiyasının çağırılmasına demək olar ki, hamılıqlı dəstək verildiyi bir halda Ermənistan yeganə dövlətdir ki, bunun əleyhinə çıxış etdi. Hətta deyərdim ki, işğalçı ölkə bəzi ölkələri də özünə qoşmağa cəhd etdi. Amma sonda Ermənistan tam fiaskoya uğradı. Ermənistan əslində öz acı niyyətlərinin bu gün nəticəsini yaşayır. Pandemiyaya qarşı mübarizədə o bəşəri prinsiplərə və dünya həmrəyliyinə dəsətk vermək əvəzinə yenə də özünün daxili siyasi ambisiyaları və əsassız ərazi iddiaları platformasına qapıldı. Nəticə də bu gün göz önündədir”.

***Ceyhun Rasimoğlu***

## Ermənistanda koronavirusa yoluxanların sayı 25 500-ü ötdü



Ermənistanda son sutkada 415 nəfərdə koronavirus aşkarlanıb. Məlumatı ölkənin Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktikası üzrə Milli Mərkəzi yayıb. Bununla da Ermənistanda virusa yoluxanların sayı 25 542-yə yüksəlib. Qeyd olunub ki, ölkədə pandemiyadan ölənlərin sayı daha 10 nəfər artaraq 443-ə çatıb. İndiyədək 14 048 nəfər infeksiyadan sağalıb. Hazırda Ermənistanda 10 904 aktiv koronavirus xəstəsi var.

# Müxalifət və partiya mədəniyyəti

***Düşünürəm, "partiya mədəniyyəti" bir anlayış və siyasi təzahür kimi Azərbaycanın siyasi təcrübə və nəzəriyyəsində ən az istifadə olunan söz birləşməsidir desək, heç də yanılmarıq. Milli politoloji təcrübə və lüğətimizdə nadir hallarda rastlaşdığımız bu ifadəni siyasətçilərimizin ritorikasında ümumiyyətlə eşitmək mümkün deyil. Sanki sözügedən anlayış və təzahür ümumiyyətlə yoxdur.***



*Asif Usubəliyev - siyasi elmlər üzrə fəlsəfə doktoru*

Xatırlaya da bilmirəm nə zaman sonuncu dəfə bu məsələyə həsr olunmuş televiziya reportajı görmüşəm, açıq diskussiya və ya mətbuatımızda müxalif yazılar ilə rastlaşmışam. Əslində bir o qədər də yaxşı olmayan mövcud təkzibolunmaz həqiqət bir çox vacib məsələlərə işarə edir. İlk növbədə ölkəmizdə olan partiyaların keyfiyyəti və onların təsis olunma niyyətlərini xarakterizə edən sözügedən vəziyyətin mövcudluğu cəmiyyətimizin fəal üzvləri, habelə siyasi proseslərə cavabdehlik daşıyan iqtidar nümayəndələrini düşündürməlidir.

Məqalədə "partiya mədəniyyəti" və ya "partiya mədəniyyətsizliyi" ilə bağlı cəmi bir neçə məqama toxunmaq istərdik. Mövzuya ölkəmizdə olduqca məhdud şəkildə diqqətin ayrılması artıq özü-özlüyündə ondan xəbər verir ki, mövcud siyasi təzahür heç bir zaman partiyalarımızın diqqətində olmayıb. Məsələyə əsas etibarilə üç kontekstdə yanaşmaq olar: siyasi plüralizmi təmin edən konkret ölkənin partiya sistemi, partiyalararası münasibətləri xarakterizə edən xüsusiyyətlər və partiya daxilində onun üzvləri arasındakı münasibətlər.

Siyasi təcrübəmizə, konstitusiyamıza və dövlət quruluşumuza istinadən əminliklə deyə bilərik ki, siyasi plüralizm müstəqil Azərbaycanın bütün dövrlərində təmin olunmuşdur. Bu mənada "partiya mədəniyyəti"nin formalaşması üçün hər zaman lazımi şərait olub və bu gün də mövcuddur. "Partiya mədəniyyəti"nin formalaşmasına dolayısılə şərait yaradan amillərdən biri də tariximizdir. ADR-in tarixçəsi buna açıq sübutdur.

Milli Məclisimizin son çağırışında müxalifət nümayəndələri ümumiyyətlə parlamentin rəhbərliyində təmsil olunur. Partiyalar haqqında qanunun mövcudluğu və onun açıq ictimai müzakirələrin predmeti olması, partiyaların dövlət tərəfindən maliyyələşməsi məsələlərinin şəffaflığı, onların fəaliyyəti üçün yaradılan şərait, televiziya və internet vasitəsilə öz elektoratı ilə açıq təmasın aparılması üçün mövcud imkanlar, partiyaların açıq fəaliyyəti üçün ölkəmizdəki demokratik mühit və digər sadalamadığımız amillər ona dəlalət edir ki, respublikada "partiya mədəniyyəti"nin formalaşmasına lazımi şərait yaradılmışdır. Beləliklə, göstərilənlərə istinadən müzakirə olunan təzahürün geniş şəkildə inkişaf olunmadığının və ya ona müraciət olmamasının əsas səbəbləri sırasından siyasi plüralizmi təmin edən ölkənin partiya sisteminin xüsusiyyətlərini istisna etmək mümkündür. Odur ki, səbəbləri digər istiqamətdə axtarmaq lazımdır.

"Partiya mədəniyyəti"nin geniş şəkildə inkişaf etmədiyinin digər səbəblər qrupuna müraciət edək. Bunlar ölkəmizdə mövcud partiyalararası münasibətləri xarakterizə edən xüsusiyyətlərdir. Sözügedən kontekstdə ölkəmizdə müxalifət adlanan partiyalarla bağlı cəmi bir amilin qeyd olunması kifayətdir ki, biz onlar arasında olan münasibətləri xarakterizə edə bilək. Şəxsi ambisiyalar, etinasızlıq və irrasionallıq uzun illər ərzində müxalifət partiyaları arasında koalisiyanın yaradılmasına maneə olumuşdur. Seçkilər, seçici iradəsi, daha güclü siyasi qüvvə olma ehtimalı, rasional düşüncə, tarixin dərsləri, iqtidarın çağırışları və bir sıra digər amillərin heç biri müxalifət partiyaların birləşməsinə səbəb ola bilməmişdir.

Müxalif siyasi qüvvələr arasında dialoqun olmaması da bilavasitə "partiya mədəniyyəti"nin inkişafı hələ də ibtidai mərhələdə olduğundan xəbər verir. Müxalifət sıralarında yaşanan "partiya mədəniyyəti"nin səviyyəsini qoyaq bir kənara, onların koalisiya şəklində siyasi mübarizənin aparılmasına maneə törədən əsas amillərdən biri də koalisiyanın bir çox partiyalar üçün siyasi alverin aparılmasına imkan verməməsidir. Deməli, "bazarın itirilməsi" qorxusu da real səbəblərdəndir. Halbuki, partiya mədəniyyətinin yaşadılması və nümayişi onlara daha çox siyasi divident qazandıra bilər.

Bu partiyalar nəinki inkişaf etmirlər, onlar üzv olduqları partiyaların gözəl ənənələrin itirilməsinin də səbəbkarlarıdırlar.

Müraciət edək müxalifətin "partiya mədəniyyəti"ni xarakterizə edən sonuncu qrup göstəricilərinə, yəni partiya daxilində onun üzvləri arasında münasibətlərin xüsusiyyətlərinə. Qarşılıqlı təhqirlər, şəxsi ambisiyalar, əsassız iddialar, dəyişməz ritorika, nihilist düşüncə tərzi, peşəkarlıqdan çox uzaq olan demaqogiya, şəxsi uğursuzluq, habelə siyasi fəaliyyəti tamamilə təhqir, şantaj, inkar və radikal çağırışlar üzərində qurmuş müxalifətin liderləri sayılan fərdlər - bu gün müxalifətimizin partiya mədəniyyətini səciyyələndirən əsas xüsusiyyətlərdir.

Digər, öz əhəmiyyətinə görə heç də geridə qalmayan xüsusiyyət dialoqa açıqlıq dərəcəsidir. Dialoqa açıqlıq dərəcəsi siyasi mədəniyyətin əsas göstəricilərdəndir. Azərbaycanda dialoqdan partiya olaraq qaçan qüvvə müxalifətdir və bu inkar olunmaz siyasi həqiqətdir. Bəli, onlar müxtəlif bəhanələri səsləndirirlər, ancaq həqiqət dəyişməz olaraq qalır: ölkəmizdə dialoqu şərtləndirərək dialoqdan qaçan tərəf mövcuddur və illər ərzində sağlam dialoqa çağıran iqtidar tərəf var. Artıq anlamaq lazımdır ki, dialoq müasir siyasi mübarizənin əsas sivil vasitəsidir. Dialoqu siyasi fəaliyyətin əsas vasitəsi kimi qəbul etməyən qüvvələr sırasında onları birləşdirə biləcək partiya mədəniyyətindən danışmaq belə mümkünsüzdür.

## "Müxtəlif təsir metodlarından istifadə olunmalıdır"



"Karantin rejimi sərtləşdiriləndən sonra da koronavirus infeksiyasına yoluxmaların sayının 500-ün üstündə olması vətəndaşların karantin rejiminin tələblərinə məsuliyyətlə yanaşmamasından irəli gəldiyini düşünürəm". Bunu SİA-ya millət vəkili Azər Badamov deyib. Deputatın sözlərinə görə, artıq tibbi maska taxılmamasına görə cərimələrin miqdarı da artırılıb: "Biz əgər müvafiq tələblərə əməl etməsək infeksiyanın yayılma sürəti yenə artacaqdır. Bunun baş verməməsi üçün kimliyindən asıllı olmayaraq tələbləri pozmuş hər kəsə inzibati cəza tətbiq olunmalıdır. Həm də düşünürəm ki, qanunun icrasını tələb edilməsi üçün nəzarət gücləndirilməlidir. Müxtəlif təsir metodlarından istifadə olunmalıdır. Biz dərk etməliyik ki, bütün məhdudiyyətlər və qadağalar bizim və yaxınlarımızın sağlamlıqları naminə tətbiq olunur".

## Bakıda 18 nəfəri aldadaraq 63,7 min manat məbləğində pulunu alan qadın tutulub




Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində dələduzluqda şübhəli bilinən paytaxt sakini Ş.Vəliyeva tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, onun ötən ilin dekabrından bu ilin mayınadək olan müddətdə Bakı şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyindən güzəştli mənzillər alacağı adı ilə 18 nəfəri aldadaraq onlardan ümumilikdə 63,7 min manat məbləğində pul aldığı müəyyənləşdirilib. Faktla əlaqədar Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb.

## Bakı şəhər sakinindən iki kiloqramdan çox heroin götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Narkotiklərlə Mübarizə İdarəsinin və Qərb Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində paytaxtın Nəsimi rayonunun ərazisində Bakı şəhər sakini E.Xudiyevdən 2 kiloqram 35 qram heroin götürülüb. Faktla bağlı araşdırma aparılır.

## "Qeybətxana" serialı: "Milli Şura" sezon finalına çıxılmayacaq?



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***"Milli Şura"nın "Qeybətxana" serialı davam edir və deyəsən belə gedərsə, heç sezon finalına çıxmaq fikri də yoxdur. Çünki oradakıların bir günü olsun belə, qeybətsiz, dedi-qodusuz keçmir, yaxud qeybət olan yeri onlarsız təsəvvürə gətirmək mümkün deyil. Ələlxüsus, əvvəlcə özlərini, sonra xalqı ələ salmaq, ardınca isə milləti təqsirli çıxarmaq baxımından...***

Öz aramızdır, amma pis də alınmır, əgər ki, məsələyə ifşa cəhətindən yanaşılarsa. Yəni indiyə qədər "Qeybətxana" serialında baş verənləri bir daha xatırlayarsaq daha hansı səhnələri, obrazları, oyunbazlıqları və rolları müşahidə etmədik ki? Gültəkinin "buğa" aşiqliyindən tutmuş, Cəmil Həsənli-Əli Kərimli cütlüyünün LGBT vəkilliklərinə, Rahim Hacıyevin hansısa avropalı siyasi gədanın azərbaycanlıları xalq, millət olaraq aşağılamasından tutmuş, yenə də Gültəkinin həmin aşağılama və təhqiri "oyyyy nə gözəl xarakterizə ediblər" sevincinə, bir daha Cəmil Həsənlinin onlarla bir olmayan xalqın müxalifətini "tryapka" adlandırmasından tutmuş, Əli Kərimlinin xısın-xısın gülümsəyib-özündənrazı rol oynamasına qədər hər şeyi gördük. Gördük və fikirləşdik ki, yəqin "Milli Şura"nın "Qeybətxana" serialı bu ifşalardan sonra az-çox özünü korrektə edəcək və bir daha bənzər ssenarilərlə ortaya çıxmayacaq. Amma çifayda ki, çifayda...

### Hələ bu harasıdır ki..? Demə əsas məsələlər qabaqdaymış!

"Milli Şura" bu dəfə də xalqı ələ saldı, öz idbar maraqları naminə onun heysiyyatı ilə oynadığını sərgilədi. Hakimiyyətdən 500 manatın tələb edilməsi və hakimiyyətin də həmin tələbi yerinə yetirməməsi kimi sərsəm planı ilə göstərmək istədi ki, guya "xalqın yanındaymış" (?!) Əslində bu qədər ucuzluğa getməyin özü adları çəkilən və çəkilməyən, ya da çəkiləcək siyasi təlxəklərin iç üzlərindəki bütün çirkabları açdı-tökdü ortalığa. Sübut olundu ki: xalqdan təcrid olunmuş "Qeybətxana" serialının urtvatsız artistləri özləri də xalqın onları rədd etdiyini, qəbullanmadığını yaxşı qanırlar, bu bir aksiomadır, danılmaz, inkaredilməz, sərt aksioma!

Həəə..! Bu dəfə də serialın "baş qəhrəmanlarından" biri hesab edilən və nədənsə son zamanlar daxili hisslərini qabarıq fonda ifadə edən Gültəkin Hacıbəylinin növbəti sirrinin üstü açıldı. Onun keçəl kişilərdən xoşunun gəlməsi və Vidadi Mirkamala dolayısı ilə "aşk" nəğməsi oxuması, etirafda bulunması da bunu sübut edir. Əbəs deyil ki, bir-birləri ilə şit zarafatlar edərkən, o "Vidadi keçəl olsa da, simpatişşşnidi" ifadəsi ilə serialın "seks-bombası" olduğunu aşkarladı. Öz aramızdır, Gültəkin burada çox ciddi riskə gedib. Çünki Vidadi İsgəndərlinin evli qadınları yoldan çıxarmaq kimi sərsəm şakəri, daha dəqiq desək, manyaklıq adəti var və nəzərə alarsaq ki, Gültəkin evli deyil, bu zaman Vidadinin onu əldə etməsi məsələsi 2+2-dir. Sonra demədilər-deməsin yenə... Vallah adam bəzən qalır mat-məəttəl ki, buğa hara, Vidadi hara... Amma fərqi yoxdur, Həsən keçəl, keçəl Həsəndə olduğu kimi, buğa Vidadi ilə Vidadi buğa da eyni zaddır...

Nəhayət..! Nəhayət, keçək Qənimət Zahidin "işimiz hakimiyyəti şərləməkdir" etirafına. İndi kim necə istərsə, elə də anlasın, o bu ifadəni ironikmi deyib, yaxud ciddi. Ancaq fakt budur ki, deyib və hətta ironik desə belə, hər bir ironiyanın arxasında gerçəkliyin, reallığın dayandığı şübhəsizdir. Şübhəsizdir ki, bu gün "Qeybətxana" serialı ilə millətin qarşısına çıxmağa qırmızı-qırmızı üzlər tapan "Milli Şura" bundan sonra da elədiyi qələtləri ətrafında hələ çox etiraflarda bulunmalı olacaq. Şər atmaq, qarayaxma kampaniyaları aparmaq, millətin, xalqın adından suiistifadə edib, bunu mənfəətlərinə yazmaq kimi faktlar kifayət qədərdir. Görün özünü orada başda oturan kimdir??? Əli Kərimli!!! Bu gün özünü zorla ictimai rəyə Leninqrad blokadasına düşən kimi təqdim edən, nədənsə "zoom" toplantılara qatılarkən interneti olan, amma buna rəğmən, sosial şəbəkə hesabında "blokadada filanıncı gün" yazdırıb, "admin heyəti" adından serial kadrlarını artıran bu "başbilən" həmin serialın ictimailəşdirilməsindən sonra yanındakıları ilə birgə bir ağızdan başlayacaqlar hakimiyyəti qaralamağa. Amma qaraladıqca, daha çox məsələlər üzə çıxacaq. Hətta deyərdik ki, belə davam edərsə, "Milli Şura"nın "Qeybətxana" serialı heç sezon finalında da çıxmayacaq. Tak çto, karantində darıxmayacağıq, bizi qarşıda daha maraqlı səhnələr gözləyir...

# Qənimət Zahid Əli Kərimlinin planlarını ifşa etdi

## "Bizim işimiz hökuməti şərləməkdir"

***Bu gün radikal müxalifətin təfəkküründə hakimiyyətə qarşı ifratçılığın, pataloji nifrətin hökm sürməsi, dövlətə və milli maraqlara qarşı durmaqla ideoloji boşluğu doldurmağa çalışması onların daxilindəki zəiflikləri nümayiş etdirən digər səbəblərin meydana çıxmasını şərtləndirir.***

Eyni zamanda, radikal müxalifətin nə üçün mübarizə apardığını və ya ölkədə hərc-mərclik ola biləcəyi təqdirdə hansı addımları atmaq lazım olduğunu belə anlamır. Yəni, ancaq siyasi sifariş həyata keçirən radikal müxalifət ölkədə demokratiyanın, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsinə təkan verə biləcək qüvvə kimi deyil, sırf ölkənin xaosa sürüklənməsinə çalışan reneqatlar birliyidir. Elə, radikal müxalifətin daxilində siyasi reneqatların yer alması da onun nadir xüsusiyyətini üzə çıxarmış olur.

### Radikal müxalifət "meymun metodu"ndan əl çəkməlidir...

Hazırkı vəziyyətdə radikal müxalifətin sivil müxalifət institutu kimi vəzifəsini yerinə yetirmədiyi reallıqdır. Kreativliyi və intellekti xarici qüvvələrin qrantlarına satmış radikal müxalifət bugünkü vəzifəsi kimi yalnız Azərbaycanın imicinə zərər vurmağı və uğurlarına kölgə salmağı görür. Bu isə onu göstərir ki, radikal müxalifət "terminatorluq" missiyasını üzərinə götürüb. Belə ki, bütün dünya COVİD-19 virusundan əziyyət çəkdiyi halda, ABŞ , Rusiya, Almaniya, Fransa, Çin, İtaliya, Böyük Britaniya və digər dövlətlər bu gözəgörünməz düşmənlə mübarizə apardığı bir məqamda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vaxtında və düzgün atdığı addım, yeritdiyi siyasət nəticəsində ölkəmizdə bu virusuna yoluxma və ölüm halları xeyli azaldığı faktlarından narahaiçılıq keçirən radikal müxalifət iblis siyasətini nümayiş etdirməkdədir. Və ən maraqlı məqam isə, dünyanın inkişaf etmiş ölkələri, nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycandan nümunə götürməyə başladıqlarını və indi də bu prosesin davam etdiyini bildirdikləri halda radikal müxalifət virusları bu reallıqları nə görürü, nə eşidir və sosial şəbəkələrdən "mitinq, mitinq" deyə bağırırlar. Məqsəd öəllidir: Azərbaycanda xaos, anarxiya, özbaşnalıq yaratmağı bir vəzifə kimi qarşısına qoymuş Əli Kərimli iqtidara iftira, böhtan atmaqda hələ də davam edir.

"Milli Şura"nın növbəti "zoom" toplantısının sözün əsl mənasında qeybət və böhtan mərkəzi kimi tanınması prosesi bu dəfə də öz təsdiqini tapmış oldu. Ən maraqlısı isə, öz danışdıqlarını belə anlamayaraq əsl meymunluq etməklə, bir-birilərini təhqir edirlər. Məsələn, elə bu günlərdə AXCP sədri Əli Kərimlinin müavini Qənimət Zahidin "zoom" iclasda istər zarafat, istərsə də ciddi şəkildə işilərinin hakimiyyəti şərləməkdən ibarət olmasını deməsi müxalifət düşərgəsində də ciddi etiraza səbəb olub.

### Hafiz Hacıyev: "Qənimət Zahid, görünür "kişilik" etmək istəyib, ancaq nə edirlərsə etsinlər hakimiyyətdə müəyyən şəxslərin "tryapka"sı, əlaltısı olduqlarını da unutmasınlar"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev ömür boyu satqınçılığı "siasi fəaliyyət" sayan Kərimli Əlinin yanında elə satqın olduğunu deyərək bildirib ki, Qənimət Zahid, nəhayət ki, haqq yoluna gəlib reallığı deyib: "Deyir zaman hər şeyi üzə çıxarır və hər kəs də



gec-tez layiq olduğu cəzanı alır. 27 il "müxalifətdəyəm" deyənlərin əqidəsi, məsləki, satqınlığı, əxlaqsızlığını zaman, özü də dünyanı ağuşuna alan koronavirusun baş aldığı bir dövrdə elə üzə çıxardı ki, virus qaldı bir yana, AXCP-nin Rəyasət Heyətinin "zoom" iclasında Əli Kərimli başda olmaqla müxalifətin, xüsusilə də müsavatçılara qarşı söyüş və təhqirlərə yol vermələri ilə bir daha cəbhəçilərin nifrətini göstərdi və bu da boğazdan yuxarı "milli demokratların" siyasi məhvi olacaqının labudi idi".

H.Hacıyev sözügedən proseslərə münasibət bildirərək vurğulayıb ki, müxalifət partiyalarını "tryapka" adlandıraraq təhqir edən istər AXCP sədri Kərimli Əli, istərsə də elə həmişə trayapka olan "Milli Şura" sədri yox, "Yurd" şefinin sədrinintraypkası olan Cəmil Həsənlinin danışdıqları elə onun tryapka olmasıdır, "ağılının" göstəricisidir: "Hələ çox həqiqətlər üzə çıxacaq. İstər Cəmil Həsənli, istər Qənimət Zazid, istərsə də digərləri həmişə qrantlara görə idarə olunublar. Çünki bu mənəviyyatsızlar nə cəmiyyətdə, nə də siyasi meydanda yox kimidirlər. İllər boyu mənasız hücumları olub və artıq hakimiyyətə gəlmək eyforiyasının sıfıra endiyi bir vaxtda bir-birinə hücuma keçmələri və "əqidələrini" nümayiş etdirmələri qeyr-möcüzə doğuran hadisə deyildi. Bir trayapka olan və "Milli Şura" deyilən satqınlar qurumunda olanlar, ancaq bolşevizim təfəkküründə olmalıdırlar. Və təhqir, söyüşlərlə "varlıqlarını" nümayiş etdirməlidirlər. Necə deyərlər, bu əxlaqsızlar "qaş düzəltdikləri yerdə, vurub o kor gözlərini də çıxardılar". Nəticədə onların yanlış siyasəti müxalifətdəkilərin də hissiyatına toxunur".

H.Hacıyev onu da bildirib ki, radikal düşərgə təmsilçilərinin fəaliyyətləri 27 ildir ki, məhz bundan ibarətdir: "Onlar yalnız hakimiyyəti deyil, xalqı da şərləyirlər və həqiqətən də xalqa pislik arzulayandırlar. Bu insanlara nəinki hakimiyyəti, ümumiyyətlə heç nəyi etibar etmək olmaz. Düşünürəm ki, əgər Q.Zahid və digərləri artıq nə danışdıqlarının fərqinə varmırlarsa, demək ki, onlar daha betər virusa yoluxublar. Hətta deyərdim ki, koronavirus ən böyük zərbəni məhz onlara vurdu".

H.Hacıyevin fikrincə, Azərbaycanda olan sağlam müxalif qüvvələr də bu məsələyə münasibət bildirməlidirlər: "Bunlar niyə susublar, çox maraqlıdır. Özünüz də gördünüz ki, Eldəniz Quliyev də bu adamlardan ayrıldı. Həmişə haqqı deyib, bunların kimliyini açıb ortaya qoymuşam. Bizim bəzi insanlar bunlara aldandılar, elə bildilər Amerikaya satılmış adamı gətirib prezident edəcəklər və Gültəkin Hacıbəyli kimi mənəviyyatsız, rəzil, satqın Azərbaycanın Xarici İşlər Naziri olacaq. Bunlar gördülər ki, yanılıblar, xalqımız ağıllıdır, hər şeyi gözəl başa düşür. Ona görə də bu cür insanlara qarşı çox sərt şəkildə mövqeyimizi bildirməliyik. Düşünürəm ki, belə bir insanın bundan sonra Azərbaycana gəlməsinə imkan verilməməlidir. Hər halda mən yaxın günlərdə bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət edərək onların fəaliyyətlərinin yoxlanılmasını xahiş edəcəm. Eldəniz müəllim də çox sağ olsun ki, indi hər şeyi başa düşdü. Deyir ki, "kor atın da elə kor nalbəndi olacaq". Kərimli Əli, Həsənli Cəmil, Qənimət Zahid kimi satqınların komandası da özünə oxşayacaq".

### İqtidarın uğuru - radikalların iç üzü...

Göründüyü kimi, hələ çox faktlar üzə çıxacaq. Doğrudur, xalqımız 2003-cü ildən büu günə kimi "müxalifət" deyilən qurumun hansı məqsədlərə və kimlərə quluq etdiklərini, ən əsası isə satqınçılıqlavrını bilirdi. Və bu gün son 17 ildə Azərbaycan Prezidentinin öz xalqına göstərdiyi qayğı və bütün dünayanı ağuşuna alan koronavirusa qarşı mübarizədə ancaq vətəndaşların sağlamlığının prioritet olduğunu deyərək dövlət başçımız "Biz birlikdə güclüyük" şüarı ilə bütün uğurlu addımları atdığını xalqımız görürü və öz liderinə inanır. Və Prezidentimizin istər siyasi, istər iqtisadi, istərsə də xarici siyasət sahəsindəki bu uğurları müxalifəti təşvişə salıb. Radikal fikirli , "görkəmli hüquqşünas", millət fədaisi" Əli Kərimli, öz savadsızlıqları və səviyyəsizlikləri ilə seçilən, mətbuat orqanı ilə informasiya agentliklərini fərqləndirə bilməyən Qənimət Zahid və Sevinc Osmanqızı və digərləri bu çıxışa siyasi don geyindirməyə, heç kimin başa düşmədiyi siyasətdən danışmağa başlayıblar. Azərbaycanın hər bir uğuru, möhtərəm Prezidentimiz İlham Əliyevin hər qələbəsi müxalifət "qəhrəmanlarının" kürkünə birə salıb.

Qeyd etdiyimiz kimi, həmin antimilli ünsürlər Azərbaycanda pandemiyanın təsirlərinin minimuma endirilməsi yönündə atılan addımları görməzdən gəlir, dövlətin öz vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinin təmin olunması ilə əlaqədar həyata keçirdiyi tədbirlərin üzərinə kölgə salmağa cəhdlər edirlər. Məsələn, tətbiq olunan xüsusi karantin rejimi çərçivəsində reallaşdırılan tədbirləri fərqli formada ictimai rəyə təqdim etməyə çalışan Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Qənimət Zahid kimi dağıdıcılar vətəndaşları qanunlara qarşı çıxmağa çağırır, yalan məlumatlarla - dezinformasiyaya əsaslanan çağırışlarla təşviş yaratmağa çalışırlar. İctimai fikri manipulyasiyaya məruz qoymağa çalışan dağıdıcılar qanunun tələblərinin pozulmasına haqq qazandırmağa çalışmaqla öz anarxist və antimilli simalarını bir daha ortaya qoyurlar. Əslində özləri də yaxşı bilirlər ki, xalqımız ölkə daxilindəki bu antimilli ünsürlərin əsl niyyətlərini görür və onların yalanlarına qətiyyən inanmırlar.

Və sonda bir faktı bir daha vurğulamaq istərdim: "Azərbaycan saatı"" kanalının "HÜSEYN AŞİQİ" adlı moderatoru Q.Zahidin canlı yayımlarını bəyənib paylaşmayanları "şərəfsiz" adlandırır. Hətta hərdən daha irəli gedərək xalqı da təhqir edir. Belələrindən bundan savayı bir şey də gözləmək mümükünsüzdür. Çünk bolşevizm təfəkkürlü bu satqınlar özləri də deyir ki, yalnız təhqirlə danışmaq, məhz savadsız, əxlaqdan və tərbiyədən kənar olanları tapıb partiyaya cəlb etmək lazımdır. Belə olan halda, Qənimət Zahid kimi əxlaqsızın hakimiyyəti şərləməyi "qəhrəmanlıq" sayırsa belələrini bu virusun qurbanına çevrilməsi labüddür. Və bu gün Qənimət Zahidin "Bizim işimiz hökuməti şərləməkdir" etirafını etməsi ilə bir daha reallıqda birbaşa düşmən qoltuğuna sığınmaqla xalqa, dövlətə əsl xain olduqlarına və nə zamansa, bütün bunlara görə mütləq, amma mütləq cavab verməli olacaqlar - Azərbaycan xalqı və qanunları qarşısında!

***Rəfiqə HÜSEYNOVA***



**Təhmasib Novruzov**

# Korona və kor onlar və ya dad yarımçıq əlindən

***Düz dörd aydan çoxdu ki, bütün dünya, o cümlədən dünyanın bir parçası olan Azərbaycan COVİD-19 adlanan və virusların kralı hesab edilib koronovirus adlandırılan bir bəla ilə savaşa qalxıb. Nəinki gözlə, heç adi mikroskopla da görmək mümkün olmayan bu gözəgörünməz düşmənlə bütün insanlıq savaşır. Təkcə savaşırmı? Günün sualı da budur.***

Hər kəsmi bu bəşəri bəla ilə savaşır, yoxsa bundan da öz məkrli niyyətləri üçün istifadə edənlər də var? Təbii ki, dünya gücləri, hər bir situasiyada olduğu kimi, bundan da öz niyyətləri istiqamətində yararlanmaq istəyirlər. Anadolu türkləri demiş, "kürəsəl güclər" min illərdir ki, ya özləri dünyanın canına bir vəlvələ salıb niyyətlərini gerçəkləşdirməyə can atırlar, ya da müxtəlif növ təbii və bioloji bəlaları öz niyyətlərinin reallaşmasıma yönləndirirlər. Bunda işimiz yoxdu. İşimiz olsa belə, biz nə karəyik ki, bu gücləri yollarından döndərə bilək? Onlara insanlığı yaradan və idarə edən qüdrət özü zamanı gələndə islah eliyəcək. Amma bizim ölkəmizdə də bu bəladan həm tamahlarını gerçəkləşdirmək, həm də siyasi oyunlarını gözlərə dürtmək məqsədilə yararlanmağa çalışanlar var ki, sözümüz həmin "kor onlar"adır. Azərbaycanda koronovirusla mübarizədə dövlətin tutduğu və sərgilədiyi birmənalı qətiyyətli mövqe həm bizə, həm də dünyaya məlumdur. Amma cəmiyyətimizdəki müxtəliflik bu virusa ictimaiyyətin mövqeyini də müxtəlifləşdirib və birmənalı deyil.

Mənim apardığım müşahidələrdən gəldiyim nəticə ondan ibarətdir ki, cəmiyyətdə insanların bu bəlaya münasibətini üç qrupa bölmək olar. Birinci qrup o adamlardır ki, bu virusun bir beynəlxalq bəla olduğunu qəbul edir və dövlətin tədbirlərinə dəstək verməklə ona qarşı fəal mübaizə aparır. Bu qrup insanlar həm intellekt baxımından, həm vətəndaşlıq baxımından təqdir olunan insanlardır ki, onlar barədə də nəsə yazıb vaxt almağa ehtiyac görmürəm. İkinci və ən təhlükəli qrup, layiq olub-olmamasından asılı olmayaraq hakimiyyətə can atan binəvalardır ki, onlar hələ də koronovirusun ümumən dünya üçün, onun sabahı üçün ciddi təhdid olduğunu ya anlamırlar, ya da amlasalar da, məkrləri bunu etiraf etməkdə onlara mane olur. Sosial şəbəkələrdə ordan-burdan göndərilmiş, mənşəyi və mənbəyi məlum olmayan videoları, yazıları götürüb, hər gün feysbook, instaqram və vattsap vasitəsilə paylaşanlar, həmin videonun və ya yazının cəmiyyətə necə təsir edəcəyini bilməmiş deyillər. Yəni insanlarda guya belə bir virusun olmaması, bunun dövlətlər üçün siyasi (?) məqsədlərlə yaradılmış və cəmiyyətləri idarə etmək üçün istifadə etdikləri bir vasitə olduğunu pafosla danışan və yazan adamların məhz azsaylı millətləri aldadaraq bu virusa daha çox yoluxmalarına yönəldilmiş bir üsul olmadığını kim deyə bilər? Və yaxud, dövlət adamlarının bu virusdan yararlanmaları (?) iddiasını irəli sürənlər, özləri öz dediklərinə inanırlarmı? Kimsə dövlətin apardığı mübarizəyə konstruktiv bir təklif irəli sürürsə, bu, təbii ki, alqışlanmalıdır.

Ancaq özlərini siyasətçi adlandırıb belə ucuz vasitələrlə "mübarizə" aparmaq hiddət doğurmaya bilməz. İnsanların faciəsi üzərində özlərinə "xoşbəxtlik" axtamaq qədər rəzil vasitə yer üzərində ola bilməz. Nə yazıqlar ki, bizim siyasilərimiz arasında belələri var və keçmişin dərsindən nəticə çıxarmaq əvəzinə, keçmişin faciəvi səhvlərini yenə təkrarlamaqdan çəkinmirlər. 1991-1993-cü illərdə Qarabağda qanlı savaş getdiyi bir zamanda, cəbhədəki döyüşçüləri Bakıya çağırıb, hakimiyyət çevrilişinə cəlb edənlər də həmin düşüncəyə malik olanlar idi və nə yazıqlar ki, otuz il keçməsinə rəğmən hələ də çoxlarının ağlı o illərdə qalmaqdadır. Nəhayət, üçüncü qrup o insanlardır ki, özü azad düşünmək, baş verənləri analiz edib qərar vermək gücünə qadir deyil və aparılan antitəbliğatın girdabına düşürlər.Nəticədə, dövlətin verdiyi qərarları gözardı etməyə, özünü qorumaq kimi sadə bir vəzifəni yerinə yetirməkdənsə, bundan imtina etməyə yönəlirlər. Gərəksiz yerə küçəyə çıxmağın, yaxın təmasda olmağın, maskadan istifadə etməməyin faciəli nəticəsini anlamaq istəməyən bu qrup insanlar, son nəticədə təkcə özlərinin deyil, yaxınlarının və ümumən cəmiyyətin təhlükəyə yuvarlanmasına rəvac verirlər. Hətta dövlət bu qaydalara əməl etməməyə görə cərimənin həcmini artıranda da, dodaqlarını büzürlər.

Qaydalara əməl edib cərimədən qurtulmaq, həm özünün , həm də ətrafdakıların həyatına təhlükə yaratmaqdan yayınmaq əvəzinə, cərimə yazanları qınayirlar. Atalar sözüdü, deyir qanana da can qurban, qanmayana da, dad yarımçıq əlindən. Mən üçüncü qrupa daxil olan toplumu həmin yarımçıqlardan hesab eduirəm. Çünki, qanırlarsa, bu virusun səhlənkarlıqla möhkəm dost olduğunu anlayar və ondan qorunmaq üçün təbliğata ehtiyac duymazlar.Qanmırlarsa, bu qədər deyilənlərdən nəticə çıxararlar. Bu ikisinin heç biri yoxdursa, deməli yarımçıqlardandılar. Yarımçıqların daəlindən min illər əvvəllərdə də dad döyüblər, indi də.Allah bizi bu yarımçıqlardan eləməsin! AMİN!

# Gürcülərə xəyanət ermənilik xislətindən doğur

***Keşiş Karbelaşvili yazırdı: "Uzun illər düşmənlərin əzab-əziyyətinə və zülmünə məruz qalan ermənilərə amansızlıq, nankorluq aşılanmış və bu günə qədər də əziyyət çəkmişdirlər". Kara Buaçidze "Qara kitab" adlı əsərində, şovinist əməllər eləcə də Gürcüstanda yaşayan bəzi ermənilərin əhval-ruhiyyəsi haqqında düşünməyi tələb edən bir çox fakt və materialları təhlil edir. Belə misallar göstərir ki, burada doğulmuş, sığınmış və böyümüş bəzi ermənilər təəssüf ki gürcülərə paxıllıq etmişlər.***

Sovet imperiyasının dövründə elmi kommunizmin professoru Mnatsakyan "şəxsiyyətə pərəstişi" tənqid edən zaman gürcülərə olan nifrətini gizlətmədi. 1953-cü ilin iyulunda isə Beriyanın "antipartiyaçılıq fəaliyyəti", 1956-cı ilin martında isə Stalinin "şəxsiyyətinə pərəstiş"indən sonra heç bir erməni deməzdi ki, o, gürcüdür. Ermənilər bunu gürcü xalqına təhqir hesab olunduğu halda qəbul edərdilər.

Tbilisi Dövlət Universitetinin keçmiş aspirantı P.Muradyan erməni alimləri adından Ermənistanın bütün milli təşkilatlarına və onların arasında mövcud olan daşnak hökumətinin rəhbərliyinə müraciət edərək açıq şəkildə demişdir: "Gürcüstanda, Abxaziyada və Tbilisidə əsrlərlə erməni xalqı yaşamalıdır. Bununla əlaqədar olaraq milli dil və məktəblər üçün erməni mədəniyyətinin və mədəniyyət mərkəzlərinin saxlanılmasına çalışılmalıdır çünki Gürcüstanda erməni xalqı assimilyasiyaya məruz qalır".

Sovet Gürcüstanının Dövlət Təhlükəsizliyi Komitəsində və onun yerli qurumlarında əsasən rus, erməni və digər qeyri-gürcü millətlərinin nümayəndələri işləyirdilər. Onların bir çoxu: Abazovlar, Krimiyanlar, Ataşyanlar, Oqanovlar, Mamulovlar, Markarovlar, Osipovlar, Korxnaznyanlar, Demurovlar, Kobulovlar, Dekanozovlar, Knyazovlar, Savitskilər, Morozovlar, Saşulkinlər, Paramonovlar və başqaları represiya olunmuş gürcü yazıçılarının eləcə də mədəni həyat tərzi sürən və partiya üzvləri olmuş xadimlərin işində "özünü göstərirdi". Represiyaya məruz qalmış yazıçı Aleksandr Siqua, 30-cu illər Rustaveli prospekti №18-də yaşadığını xatırlayır. Bu zaman qonşuluqda 1937-ci ildə həbs edilmiş köhnə bolşevik Qalaktion Vaşadze yaşayırdı və onun mənzilində sonradan Rapava, Ruxadze və Cereteli ilə dəmir yolu klubunda məhkum olunmuş və güllələnmiş Krimiyan adlı bir nəfər təhlükəsizlik işçisi yerləşdirilmişdi. Onun mənzilində bu səfər Oqanov adlı təhlükəsizlik işçisini yerləşdirdilər. Göründüyü kimi, həbs olunanların mənzillərində təhlükəsizlik işçiləri yerləşdirilirdi.

Gürcülərə qarşı olan düşmənçilik və təhqiramiz hərəkətlər dünyanın bir çox ölkələrində yaşayan

## *Ermənilər daim gürcülərə xəyanət etmişlər*

ermənilərin arasında da var.

Rusiyanın prezident şurasının üzvü, erməni əsilli politoloq A. Miqranyan bəyan etmişdir ki, Rusiya Azərbaycanda və Gürcüstanda (Acarıstan, Naxçıvan, Dağlıq Qarabağ və Sameqrelonun faktiki müstəqilliyini) və Rusiya üçün əhəmiyyət kəsb edən bütün regionlarda sülh və sabitliyin əldə olunması məqsədilə yeni dövlət quruluşlarının milli və ərazi baxımından olan təminatı nəzərə alınmalıdır. Daşnak Andenika isə daha dərinə gedərək rus siyasətçilərinə məsləhət görür ki, "Şimali Qafqaz xalqlarının qiyamçı enerjisi Gürcüstana qarşı yönəldilməlidir, əks halda isə bu enerji Rusiya üçün problem yaradacaqdır".

1996-cı ilin noyabr ayında Ermənistanda rus dillində yayımlanan "Vremya" qəzetində Erikyanın "Axalkələkdə istənilən mafioza 200 dollar ver və o Cavaxkın müstəqilliyini tələb edəcək" adlı məqaləsi dərc olundu. Müəllifin sözlərinə görə belə bir vəziyyət yaranırdı ki, o Cavaxetiyada təhsil konfliktinin yaranmasını yox, daha çox Gürcüstan tərəfinə təhsil perspektivi ilə təzyiq göstərmək istəyir. O, elə ideal şəkildə təsvir edir ki, sanki Cavaxetiya sakinləri formal olaraq Gürcüstanın vətəndaşı olaraq qalacaqlar, lakin eyni zamanda Ermənistanın maraqları ilə yaşayacaqlar. A. Erikyan Gürcüstanın tarixi regionunu Cavaxetiya kimi yox, "Cavaxk" kimi xatırladır.

Ruslar 1921-ci ildə ruslar Gürcüstanın Loru-Taşiri ərazisini ələ keçirdilər. Bu gün isə rus dairələri Samtsxe-Cavaxetiyanın birləşdirilməsi və buradan da Qara dənizə çıxışın əldə olunması haqqında ciddi şəkildə düşünürlər. Gürcüstan - Ermənistan arasındakı sərhədlər gizli və ya açıq şəkildə şimala doğru gedir. Gürcüstanın Daxili İşlər Nazirliyinin verdiyi məlumata əsasən bu sahədə Gürcüstan öz tarixi torpaqlarını itirir...

Axalkələkdə, yerli gürcülərə böyük xidmətləri olan keçmiş əczaçı Alxazişvili yaşayırdı. Onu gürcülərin atası adlandırırdılar. O, gürcüləri ermənilərə etibar etməməyə çağırırdı və deyirdi ki ermənilər sizi məhv edəcək, türklərlə dostluq edin. Gürcüstanın bəzi quldurları ermənilərin tərəfində idilər və ona görə də onları Alxazişvilinin üstünə göndərdilər. Beləliklə də Axalkələk erməniləri onu öldürmək qərarına gəldilər. Belə ki yığıncaqlardan birində o əhaliyə müraciət edən zaman ermənilər ona hücum edərək möhkəm şəkildə döydülər. Gecə ilə döyülmüş Alxazişvilini oğurlayaraq Bakurianiyə apardılar.

Gürcüstanın Müdafiə Nazirliyində hərbi təchizat işinə yüksək rütbəli zabitlər olan Nazapetyan və Kazaryan nəzarət edirdilər. 1992-ci ildə baş verən Abxaziya müharibəsi zamanı Tiflisdə yerləşən və sonradan Gürcüstanın rəsmi qeydiyyatdakı məhkəmə orqanına çevrilən rus hərbi bazası, daimi hərb hazırlığında müasir standarta uyğun olan 200 ağır artilleriya silahına və ağır texnikaya malik idilər ki bunlardan da 7 ədədi Abxaziyada mübarizə zamanı istifadə olunmuş, qalanları isə qaçaqmalçılıq yolu ilə Ermənistana aparılmış və Qarabağ müharibəsinin ilk təmas xəttində istifadə olunmuşdur. Belə bir fakt Gürcüstanın aviasiyasında da qeydə alınmışdı. Belə ki, gürcü aviadaşıyıcılarından biri rus pilotunun köməyi ilə qaçaqmalçılıq yolu ilə Ermənistanın aeroportuna enmişdi. Müdafiə Nazirliyindəki yüksək vəzifələrdən birində Daşnaksütyun partiyasının üzvü dururdu. Belə bir halda istər-istəməz Qerontiya Kikodzenin "Milli enerji" əsərindən olan sözləri yada düşür: "Biz əmin deyilik ki, ermənilər Gürcüstanın səmimi vətəndaşlarıdır və öz istəklərilə mühariyə gedə bilərlər".

Ancaq müharibə zonasına yaxınlaşarkən həmvətənlərini görmələri kifayətdir ki, onlar adlarını dəyişməklə "Andronik" və "Xarenik"dən ilham alaraq əks tərəfə doğru hərəkət etsinlər. Ona görə də bu gün heç bir erməniyə ümid etmək olmaz. Baş verənlər təkcə xəyanət deyil, həm də ermənilərin mili-irqi əlamətidir.

Sen-Martin tez-tez Çamçyanın hekayəsini xatırlayır, baxmayaraq ki, onun səhvlərini gizlətmir, açıq şəkildə görür və lazım olduqda bir çox yerlərdə onu tənqid edir; bundan başqa, onun salnamələrinin də tamamilə yalan olduğunu düşünür.

Brosset tərəfindən nəşr olunan Eçmiədzin əlyazmalarının tarixi kataloqu olan Aqatangelonun 5 nömrəli məktubunda Böyük Konstantin və Kral Trdatın bir nişan məktubu var. Orada qeyd olunur ki, Trdat çar Konstantini və gürcü kralı Mirianı da digər padşahlar kimi özünə tabe etdi və beləliklə də Trdat Qərblə yanaşı bütün Şərqin də hökmdarı oldu. Ermənilərin uydurduqları bu tarixin bütün tarixlərə nə qədər yalan və zidd olduğunu hər kəs aydın şəkildə görür.

Ermənistandakı missionerlər erməni yazıçılarının yalançılığı haqqında olan məruzələrindən birində yazmışlar: "ermənilər nağıl hekayələri yaratmaqda ağıllıdırlar, öz şəhidləri haqqında heyrətamiz nağıllarla dolu əhvalatlardan sitat gətirirlər"

Erməni yazıçıları belə saxta təsvirlərə əsaslanaraq bütün dünyaya sübut etmək istəyirlər ki, ermənilər qədim dövrlərdən Gürcüstana köçmüşlər. Biz isə ermənilərin yalançı olduğuna tam əminik, çünki onlar həmişə həqiqətdən boyun qaçırırlar... Buna görə də Edesdən olan Metyunun, ermənilərin ikinci David tərəfindən Gürcüstana köçürülməsi barəsində dediklərini qəbul edə bilmirik. Məsələn, onun bu dediyini qəbul edə bilmərik: Bir çox ermənilər Gürcüstanda onlar üçün bir şəhərin əsasını qoyan və ona Kora adını verən kral Davidin yanına toplaşdı; orada onlar üçün çoxlu sayda kilsə və monastırlar tikdirdi. Tariximiz kralımızın belə bir üstün və çox təqdirəlayiq davranışı haqqında heç bir şeyi qeyd etmədiyinə görə, bunu tarixi həqiqət kimi qəbul edə bilmərik; tariximizdə belə bir şeyi gizlətmək üçün də hər hansı bir bəhanə, səbəb və maraq olmamışdır.

Xarici qəbilələrin yazıçıları ikinci Davudun müharibələrini və hallarını olduqca ətraflı şəkildə təsvir edirlər, lakin onlar bu köçürülmə haqqında heç bir şeyi qeyd etmirlər. Biz isə Davidin Gürcüstanın Qori şəhərini yaratması ilə razılaşa bilmərik. Əgər doğrudursa, onda Gürcüstan tarixində bu barədə nəsə deyilməli idi. Vaxuşti öz coğrafiyasında yazır: Qorinin kim tərəfindən tikildiyi məlum deyil, lakin Kartlis tsxovreba-da Sezarın onu Tonti adlandırdığı yazılmışdır. Strabonun coğrafi təsviri sübut edir ki, Qori onun Qorsena adlandırdığı qədim şəhərdir. Bir çox digər Avropa yazıçıları deyirlər ki, Qorsena şəhəri Qorinin özündən başqa bir şey deyildir. Məsələn, Sezar Famin qeyd edir ki, "Strabonun təsviri Qorinin Qorsena adlandırdığı qədim bir şəhər olduğunu sübut edir".

***Vahid Ömərov,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Ruslar 1921-ci ildə ruslar Gürcüstanın Loru-Taşiri ərazisini ələ keçirdilər. Bu gün isə rus dairələri Samtsxe-Cavaxetiyanın birləşdirilməsi və buradan da Qara dənizə çıxışın əldə olunması haqqında ciddi şəkildə düşünürlər. Gürcüstan - Ermənistan arasındakı sərhədlər gizli və ya açıq şəkildə şimala doğru gedir. Gürcüstanın Daxili İşlər Nazirliyinin verdiyi məlumata əsasən bu sahədə Gürcüstan öz tarixi torpaqlarını itirir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

1 iyul

## Avtomobildən pul, maqnitofon oğurlayan şəxs yaxalanıb



Bakıda oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, aprelin 22-də və mayın 8-də Binəqədi rayonu ərazisində bir avtomobildən pul, maqnitofon və vətəndaşa məxsus velosipedi oğurlamaqda şübhəli bilinən paytaxt sakini Ə.Mehdiyev rayon polis idarəsi 6-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yaxalanıb.

Yasamal Rayon Polis İdarəsi 28-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində isə iyunun 25-də Bakı şəhər sakini olan R.Tarverdiyevin mobil telefonunu quldurluq yolu ilə almaqda şübhəli bilinən paytaxt sakini Ü.Qurbanov saxlanılıb. Faktlarla bağlı tədqiqat davam edir.

## Arda Turan "Barselona" ilə vidalaşdı




***Arda Turanın "Barselona" ilə müqaviləsi başa çatıb. Belə ki, türk yarımmüdafiəçinin Kataloniya klubu ilə 5 illik müqaviləsi dünən bitib.***

Qeyd edək ki, A.Turan 2015-ci ildə "Atletiko"dan "Barselona"ya transfer olunmuşdu. 33 yaşlı oyunçu 2018-ci ilin yanvarında "Başakşəhər"ə icarəyə göndərilmişdi. O, bu ilin yanvarında İstanbul təmsilçisindən ayrılmışdı.

## Ən çox allergiya yaradan qidalar hansılardır?

Statistik məlumatlara əsasən, dünya əhalisinin 30 faizə qədərində müxtəlif allergik reaksiya və xəstəliklər mövcuddur. Onların arasında bronxial astma, dərman və qida allergiyaları geniş yayılıb. Təəssüf ki, həmin xəstəliklərdən əziyyət çəkənlərin xeyli hissəsi uşaqlardır. Uşaqlar arasında allergik reaksiyaların ən geniş yayılan növü isə qida allergiyasıdır. Bu, uşaqlarda çox vaxt qusma, qarın ağrısı ilə müşayiət olunur. Allergiya yaradan qidalar isə müxtəlifdir.



Uşaq Bərpa Müalicə Mərkəzinin həkim-allerqoloqu Pərvanə Hüseynova AZƏRTAC-a deyib: "Ən çox allergiya yaradan qidalara süd, yumurta, balıq və qoz-fındıq aiddir. Uşaqlarda allergiya xəstəliyinin əsas əlamətləri burun tutulması, nəfəsalmanın çətinləşməsi, asqırmaların artması, burunda və gözdə qaşınmalardır. Xəstəliyin uşaqlara psixoloji təsirləri də var. Allergik xəstəliklərin əksəriyyəti səpgi və qaşınma ilə müşayiət edilir. Bu, uşaqların yuxusunun pozulmasına və nəticədə əsəbiliyin yaranmasına səbəb olur. Məktəbyaşlı uşaqların yaddaşında zəifləmə və qavrama qabiliyyətində geriləmə yaranır".

Nəzərə almaq lazımdır ki, allergiya erkən aşkar olunduqda onun müalicəsi mümkündür. Vaxtında müalicə edilmədikdə ciddi fəsad və ağırlaşmalara səbəb olur. Çox vaxt qida allergiyası müxtəlif dəri səpgilərinə səbəb olur və onların hər birinin özünəməxsus müalicəsi var. Ev şəraitində həmin vaxt dərini qliserinli sabunla yumaq məsləhətdir. Onun qarşısını almaq üçün allergik səpgiləri digərlərindən fərqləndirmək lazımdır. Ən başlıcası, belə hallarla üzləşdikdə vaxtında həkimə müraciət edilməlidir.




## Kondisioner işlədərkən bu qaydalara diqqət edin!

İsti yay günlərində qapalı məkanlarda ən çox ehtiyac duyulan məişət əşyalarından olan kondisionersiz ötüşmək çox çətindir. Lakin ondan istifadə olunması bir sıra sağlamlıq problemləri yaratdığına görə bəzi məsləhətləri nəzərə almaq lazımdır. Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun həkim-terapevti Taleh Abbasov AZƏRTAC-a deyib: "Soyuq havanın birbaşa insanın üzərinə vurması əzələlərdə, sümüklərdə və oynaqlarda ağrı yaranmasına səbəb olur. İnsanda xroniki xəstəliklər olduqda sərin havanın həmin xəstəliklərin daha da aktivləşdirməsi nəticəsində başağrısı, burun tutulması və ödemlərin yaranmasına aparıb çıxarır".

Həkimlərin dediyinə görə, yayda kondisioner olan yerin temperaturu daim nəzarətdə saxlanılmalıdır. Bayırdakı hava ilə kondisioner olan otağın temperatur fərqi 10 dərəcədən çox olmamalıdır. Kondisioner sağlamlıqla əlaqədar problem yaradarsa, ya ondan ümumiyyətlə istifadə etməmək, ya da otaqda və ofisdə nəmləndirici qurğular yerləşdirmək məsləhətdir.

"Kondisioner allergik xəstəliyi olanlara zərərli təsir göstərir, nəfəs yollarında və ağız boşluğunda quruluq yaradır. Bu, kondisionerdən gələn soyuq hava axınında otaqda olan toz, bakteriya və virus qabarcıqlarını sirkulyasiya etməsi nəticəsində nəfəs yollarına düşən allergenlərin sayəsində baş verir", - deyə həkim-terapevt əlavə edib.

Kondisioner adətən otağın yuxarı hissəsində yerləşdirilməli və hava axını qətiyyən aşağı vurmamalıdır. Hava isti olanda insanın tərli-tərli soyuq hava axınını öz üzərinə yönəltməsi çox təhlükəlidir. Soyuq hava uzun müddət bir yerə təsir edəndə soyuqdəymə xəstəlikləri yarada bilər. Kondisioner oksigenin miqdarını azaltdığına görə olduğu məkanın havası mütəmadi olaraq dəyişdirilməli və ayda bir dəfə tozu təmizlənməlidir.

## Şahmatçılarımız neçəncidir? -FİDE-nin yeni reytinq siyahısı

***Beynəlxalq Şahmat Federasiyası (FİDE) yeni reytinq siyahısını açıqlayıb. FİDE-nin rəsmi saytında yer alan məlumatda deyilir ki, ilk "10-luq"da Azərbaycanın yenə bir təmsilçisi yer alıb. Son dünya kubokunun qalibi Teymur Rəcəbov (2765 xal) 9-cu pillədəki yerini qoruyub. Şəhriyar Məmmədyarov (2764) da 11-ci yerdə qalıb.***

Digər şahmatçılarımızdan Qədir Hüseynov (2665) 72-ci, Nicat Abbasov (2664) 74-cü, Rauf Məmmədov (2654) 89-cu pillədə qərarlaşıblar.

Siyahıya Norveç şahmatçısı Maqnus Karlsen (2863) başçılıq edir. ABŞ təmsilçisi Fabiano Karuana (2835) 2-ci, Çin qrossmeysteri Dinq Liren (2791) 3-cüdür.



Qadın şahmatçılarımızdan Günay Məmmədzadə (2443 xal) 29-cu, Gülnar Məmmədova (2382) 76-cı, qadınlar arasında son Azərbaycan çempionu Xanım Balacayeva (2376) 86-cı sırada qərarlaşıblar.

## Cengiz Ünder nəhənglərin maraq dairəsində

İtaliyanın "Roma" klubunun şərəfini qoruyan türkiyəli ulduz Cengiz Ünderin xidmətində "Napoli" komandası da maraqlıdır. Mövsümün sonu müqaviləsi başa çatacaq 33 yaşlı Xose Kallexonun yerini doldurmaq istəyən "Napoli" Cengiz Ünder üçün "Roma"ya müraciət edib. Xəbərdə Roma klubunun Cengiz Ünder üçün 30 milyon avro istədiyi qeyd olunub. Qeyd edək ki, "Roma" ilə 2023-cü ilə qədər müqaviləsi olan 22 yaşlı ulduzla "Yuventus", "Bayern" və "Everton" kimi klublar da maraqlanır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**